# Bakıda faciə

15 yaşlı qız uşaq dünyaya gətirdi, hər ikisi öldü



**Bakıda yeniyetmə qız uşaq dünyaya gətirib qısa müddətdə özü və körpəsi ölüb.**

Faciəli hadisə 3 saylı Şəhər Klinik Xəstəxanasında qeydə alınıb. Doğuş sancıları ilə xəstəxanaya gətirilən 15 yaşlı G.B. (şərti qeyd) və dünyaya gətirdiyi uşaq ölüb.

Araşdırmalar nəticəsində G.B.-nin əvvəllər 28 yaşlı Mayıl Hadıyevlə qeyri-rəsmi nikah münasibətlərində olması müəyyən edilib. Faktla bağlı cinayət işi başlanılıb, M.Hadıyev saxlanılıb.

(səh.6)

## Fransa Prezidenti: “Rusiya ilə dialoq zəruridir”



**”Rusiya ilə dialoq zəruridir”. “Report” xəbər verir ki, bunu Fransa Prezidenti Emmanuel Makron deyib.**

O, qeyd edib ki, Rusiya ilə dialoq müxtəlif formatlarda davam etdirilməlidir.

Fransa Prezidenti eyni zamanda Ukraynada vəziyyətin deeskalasiyasına yönəlmiş razılaşdırılmış hərəkətləri davam etdirəcəyini vəd edib. ”Ukrayna böhranının nizamlanması üzrə ”Normand formatı” çərçivəsində danışıqlar yaxın günlərdə də davam edəcək”, - Makron deyib.

№ 24 (5546), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 fevral 2022-ci il (çərşənbə)



# Qadın metroda qatar yoluna düşüb

İlkin ehtimalla görə onun intihara cəhd etdiyi bildirilir

**Bakıda metroda hadisə baş verib. Hadisə ”Azadlıq prospekti” metrostansiyasında, Dərnəgül-Həzi Aslanov xətti üzrə hərəkət edən qatar yolunda baş verib.**

Dünən axşam saat 21:54 radələrində stansiyada olan sərnişinlər arasında orta yaşlı bir qadın qatar yoluna düşüb.

Hadisə qatar stansiyaya daxil olarkən baş verib. Dərhal maşinistə məlumat verilib, 21:55-də qatar relsində gərginlik dayandırılıb. Qadın qatar yolundan çıxarılandan sonra, saat 22:05-də gərginlik bərpa olunub və qatarların hərəkəti bərpa edilib. İlkin ehtimalla qadının intihara cəhd etdiyi bildirilir.

*Faktı Trend-ə Bakı metropoliteninin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov təsdiqləyib. O bildirib ki, hazırda hadisənin hansı şəraitdə baş verdiyi araşdırılır.*



## Media Reyestrinə daxil olmaq şərtdir

Jurnalistlərə güzəştli ipoteka veriləcək

**Azərbaycanda jurnalistlər güzəştli ipoteka krediti əldə edə biləcəklər.**

Bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilir.

(səh.2)

## Putinin Türkyəyə səfər tarixi yaxın günlərdə məlum olacaq



**Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə səfərinin tarixləri yaxın günlərdə məlum olacaq.**

Trend-in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu mətbuat konfransında deyib.

Qeyd edək ki, dünən həm də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da səfərlə bağlı ölkələr arasında razılığın olduğunu, hələlik dəqiq tarixin məlum olmadığını bildirmişdi.

*Xatırladaq ki, bir müddət Ukraynaya səfər etmiş Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan həm V.Putini, həm də Volodimir Zelenskini Türkiyəyə dəvət etmişdi.*

# Rəsmən möhürləndi

Azərbaycan-Türkiyə arasında hərbi müttəfiqlik istənilən təhdidlərə tutarlı cavab olacaq



**Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə naziri Z.Həsənov Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.**

Hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlığa da müsbət təsir etdiyini deyən general-polkovnik strateji müttəfiqliyin dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu bildirib. Muhsin Dərə də öz növbəsində, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi qeyd edib. Görüşdə Bakıda keçiriləcək ”Texnofest-2022” festivalında Azərbaycan Hərbi Hava Qüvvələrinin vasitələrinin və hərbi qulluqçularının iştirakı barədə fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, tarixi Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya olunmasından sonra Azərbaycan-Türkiyə generaliteti arasındakı təmaslar artıb.

(səh.3)



## Bakı cavab gözləyir

8 erməni hərbçini qarşı tərəfə xoş niyyətlə qaytardıq

**Ermənistan XİN sözçüsünün dedikləri və Azərbaycan XİN-in cavabı göstərdi ki, İrəvan 8 ermənininin qarşılığında kütləvi məzarlıqların koordinatlarının verilməsi anlaşmasından imtina edir.**

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaan Unanyan deyib ki, hökumət bu məsələdə təktərəfli öhdəlik götürməyib. Lakin XİN rəsmisi 8 ermənininin qarşılığında məzarlıqların koordinatının verilməsi razılaşmasını təkzib etməyib.

(səh.3)

# Bu da xoş xəbər

Azərbaycan vətəndaşları Türkiyədə icbari tibbi sığortadan istifadə edə biləcək

**Gələcəkdə Türkiyə və Azərbaycan vətəndaşları qarşılıqlı şəkildə icbari tibbi sığortanın tərkibinə aid olan xidmətlərdən istifadə edəcəklər.**

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev deyib. Sədrin sözlərinə görə, qardaş Türkiyə ilə səhiyyə sahəsində bir çox layihələr həyata keçirilir:

”Vətən müharibəsində yaralanan qazilərə psixoloji yardımların göstərilməsi üçün icra olunan layihələrin genişləndirilməsi istiqamətində Türkiyə ilə birgə əməkdaşlıqlar olacaq.

(səh.3)



## Dərsə davam!

Məktəblərin bağlanması müzakirə edilmir



**Ölkədə son günlər koronavirusa yoluxma hallarının artımı müşahidə olunur.**

Bu səbəbdən bir neçə gündür sosial şəbəkələrdə məktəblərin bağlanacağı ilə bağlı iddialar səsləndirilir. Yayılan məlumatlarda məktəblərin fevralın 15-dən 2 həftəlik bağlanacağı bildirilir. Trend-in sorğusuna cavab olaraq Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sekorunun müdiri Cəsarət Valehov qeyd edib ki, yayılan məlumatlar yanlışdır, hazırda bu məsələ müzakirə edilmir.

*Xatırladaq ki, bir müddət öncə nazirliyin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev də bildirmişdi ki, məktəblərdə yoluxma ilə bağlı vəziyyət nəzarət altındadır və məktəblərin tamamilə qapadılmasına ehtiyac görülmür.*

## Daha 7 032 nəfər koronavirusa yoluxub

22 nəfər vəfat edib, 5 285 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 7 032 yeni yoluxma faktı qeydə alınıb, 5 285 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış nəfər 22 vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 710 366 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 653 797 nəfər müalicə olunaraq sağalıb, 8 920 nəfər vəfat edib, aktiv xəstə sayı 47 649 nəfərdir.

Ölkədə son sutka ərzində 17 889, hazırkı dövrədək isə 6 296 788 test aparılıb.



## "Ermənistanla vasitəçisiz təmaslara keçmək lazımdır"

Qulamhüseyn Əlibəyli: “Azərbaycan iqtidarının indiyə qədərki siyasəti, davranışları qənaətbəxşdir”

(səh.4)

## İslahatlara ciddi ehtiyac var

Adil Qeybulla: “Təcili tibbi yardım hər çağırışa getməməlidir, bu, insanlara düzgün təbliğ olunmalıdır”

(səh.5)



# Yenidən qurulan "Yaşma" qovşaq yarımstansiyasının açılışı olub

## Prezident açılışda iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan dövlətlərarası strateji əhəmiyyətə malik 330/220/110/10 kilovoltluq "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak edib.**

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Rusiya-Azərbaycan enerji sistemlərini əlaqələndirərək, dövlətlərarası qovşaq yarımstansiyası funksiyasını daşıyan "Yaşma" yarımstansiyası ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə tikilib. Yarımstansiya dənizə yaxın, nəmişlik ərazidə yerləşdiyi üçün dəmir-beton və metal-konstruksiyaların aşınması, həmçinin uzunmüddətli istismar nəticəsində avadanlığın köhnəlməsi, izolyasiya parametrlərinin pisləşməsi tez-tez qısaqapanma hadisəsinin baş verməsinə səbəb olurdu. Bundan əlavə, sistem qəzalarının başvermə ehtimalı və sürətlə artan tələbatı ödəyə bilməməsi ilə əlaqədar yarımstansiya Prezident İlham Əliyevin tapşırığı ilə rəqəmsal qaydada tam yenidən qurulub. Spesifik sahə olduğundan yenidənqurma işləri yerli mütəxəssislər tərəfindən növbətçilik əsasında, elektrik gərginliyi saxlanılmaqla aparıldığı üçün yarımstansiyanın fəaliyyətində fasilə yaranmayıb.

"Sumqayıt", "Qobu", "Xaçmaz" elektrik stansiyaları ilə birbaşa, "Azərbaycan" İstilik Elektrik Stansiyası və "Cənub" Elektrik Stansiyası ilə isə "Abşeron" yarımstansiyası vasitəsilə əlaqələndirildiyindən çox mühüm strateji funksiyanı üzərinə götürən "Yaşma" qovşaq yarımstansiyasının "Qobu" Enerji Qovşağına, bu ilin yanvarında əsası qoyulan "Xızı-Abşeron" Külək Elektrik Stansiyası və tikintisinə başlanılacaq yeni "Yaşma" Elektrik Stansiyasının enerji sisteminə inteqrasiyasının həyata keçirilməsi üçün yeni yuvalar quraşdırılıb. Şimal-şərq rayonlarının və Abşeron yarımadasının enerji təchizatında müstəsna əhəmiyyət kəsb edən "Yaşma" yarımstansiyasında 330, 220 və 110 kilovoltluq açıq paylayıcı qurğular sökülərək genişləndirilmiş formada yenidən qurulub. Burada hər birinin gücü 250 meqavat olan üç yeni avtotransformator quraşdırılıb. Nəticədə yarımstansiyanın ümumi gücü 110 meqavat artırılmaqla 750 meqavata çatdırılıb. "Qobu" Elektrik Stansiyasından "Yaşma" yarımstansiyasına 47 kilometr məsafədə 330 kilovoltluq ötürmə xətti çəkilib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, enerji sistemində ilk dəfə məhz bu yarımstansiyada respublikanın şimal-şərq rayonlarının və Abşeron yarımadasının reaktiv gücünü kompensasiya edə biləcək şuntlayıcı reaktor quraşdırılıb. 120 MVAr gücündə idarəolunan şuntlayıcı reaktor 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək, xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər, texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.

Yarımstansiyanın ərazisində yeni idarəetmə mərkəzi tikilib. Burada yeni əksqəza avtomatikası sistemi yaradılıb, yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistem mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq, yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, açılıb-qoşulma əməliyyatları proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Bakı-Quba magistral yolundan yarımstansiyaya qədər dörd kilometr məsafədə yol təmir edilib, bir kilometr məsafədə yeni yol çəkilib və daxili yollar salınıb.

Sistem əhəmiyyətli 330/220/110/10 kilovoltluq "Yaşma" yarımstansiyasının əsaslı yenidən qurulması ilə onun yüködürmə qabiliyyətinin artırılmasına, dövlətlərarası və ölkədaxili elektrik təchizatının etibarlığının və dayanıqlılığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir texnologiyaların tətbiqinə nail olunub. Ən müasir idarəetmə, rele mühafizəsi və avtomatika dövrələrinin quraşdırılması avadanlıqların imtinası və zədələnməsinin qarşısının alınmasını, mühafizələrin cəld, selektiv, etibarlı işini və operativ əməliyyatların çevikliyini təmin edəcək.

# "Media haqqında" qanun təsdiqləndi

> "Qanun yeniliklərlə zəngindir. Güman edirik ki, Azərbaycan mediasını yeni müstəviyə daşıyacaq"



**Prezident İlham Əliyev "Media haqqında" qanunu təsdiqləyib.** "Media haqqında" qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Prezidentin fərmanı ilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi"ndə edilən dəyişikliyə əsasən Medianın İnkişafı Agentliyinin (MEDİA) vəzifələri də artırılıb. Media Reyestrinin 6 ay müddətində yaradılacağı deyilib.

Fərmana əsasən, Medianın İnkişafı Agentliyi Media Reyestri bazasının Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görməlidir. Jurnalistlərə güzəştli ipoteka krediti verilməsinə dair şərtlər də müəyyənləşib. Ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş gənc ailənin üzvü olan şəxs güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olacaq. Eyni zamanda ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs də güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olacaq. Qeyd edək ki, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası tərəfindən güzəştli ipoteka krediti üzrə illik faiz dərəcələri müəyyən olunana qədər illik faiz dərəcəsi güzəştli ipoteka krediti üzrə isə 4 faizdən çox olmamalıdır.

**Qanun layihəsinin Prezident tərəfindən təsdiq olunması ilə bağlı "Şərq"ə danışan Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli deyib ki, "Media haqqında" qanun Azərbaycan media ictimaiyyətinin geniş müzakirəsi ilə qəbul olunub.** MŞ sədrinin müavini vurğulayıb ki, layihənin müzakirəsində və hazırlanmasında media ictimaiyyəti iştirak edib: "Qanun ölkənin media cameəsinin iradəsini, istəklərini özündə ehtiva edir. Bu baxımdan cənab Prezidentə təşəkkür edirik ki, hamımızın istək və düşüncələrini ehtiva edən bu qanunu təsdiq etdi. Qanun yeniliklərlə zəngindir. Güman edirik ki, Azərbaycan mediasını yeni müstəviyə daşıyacaq. Xüsusən, onlayn medianın və jurnalistlərin fəaliyyət istiqamətinin dəqiqləşdirilməsi, reyestrin aparılması baxımından qanun bir sıra parametrlərə görə çox önəmlidir. Bütün media ictimaiyyətini təbrik edirəm".

**İsmayıl Qocayev**

# MTRŞ ləğv olunur

## Azərbaycanda Audiovizual Şura yaradılır

**Azərbaycan Respublikası Audiovizual Şurası yaradılır və Milli Televiziya və Radioyayım Şurası (MTRŞ) ləğv olunur.**

Bu barədə Prezident İlham Əliyevin imzaladığı "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərmanda qeyd olunub.

Fərmana əsasən, Şura Milli Televiziya və Radio Şurasının hüquqi varisidir, onun öhdəlikləri və əmlakı Şuraya keçir, Milli Televiziya və Radio Şurasının səlahiyyət müddəti bitməmiş üzvləri həmin müddət bitənədək fəaliyyətlərini davam etdirirlər, Şuranın strukturu və işçilərinin say həddi təsdiq edilənədək Milli Televiziya və Radio Şurasının Aparatı fəaliyyətini davam etdirir.

# Media Reyestrinə daxil olmaq şərtdir

## Jurnalistlərə güzəştli ipoteka veriləcək



**Azərbaycanda jurnalistlər güzəştli ipoteka krediti əldə edə biləcəklər.**

Bu barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında Prezidentin Fərmanında qeyd edilir.

Fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdir. Bundan əlavə, gənc ailənin üzvü olmayan ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər də bu imkandan yararlana biləcəklər.

*Qeyd edək ki, Azərbaycanda güzəştli ipoteka krediti 4 faizlə verilir.*

# NATO zabitləri Azərbaycanda partlayıcı qurğularla bağlı təlim keçir



**Müdafiə Nazirliyinin NATO ilə 2022-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssum şəhərində (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən əldə düzəldilmiş partladıcı qurğulara qarşı tədbirlər (C-IED) mövzusunda təlim kursu keçirilir.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Kursda dinləyicilərə NATO-nun əldə düzəldilmiş partlayıcı qurğulara qarşı tədbirlər zamanı birgə fəaliyyətlərlə bağlı müxtəlif sahələr üzrə brifinqlər təqdim olunub.

Mövzuya dair fikir mübadiləsi aparılıb, praktiki qrup çalışmaları yerinə yetirilib.

*Təlim kursu fevralın 11-dək davam edəcək.*

# Rus sülhməramlılarına sonuncu xəbərdarlıq edilməlidir

## Təxribatlar təkrarlanarsa ordu hərbi döyüş vəziyyətinə gətirilməlidir



**"Rus sülhməramlılarının erməni separatçılarının əməllərinə göz yumması ümumi planın tərkib hissəsidir". Bunu "Şərq"ə açıqlamasında politoloq Azər Qasımov deyib.**

Analitik bildirib ki, bu, "sülhməramlı" adı altında fəaliyyət göstərən rus ordusuna mərkəzi rəhbərlik tərəfindən verilən tapşırıqdır: "Erməni adlı məxluqlar da onların bu işdə alətidir. "Sülhməramlı"ların bundan sonra da belə oyunlarının çox şahidi olacağıq. Üç-beş sərxoş erməni quldurun törətdiyi əməl kimi qələmə verilən təxribatlarla Azərbaycan xalqını ələ salırlar. Erməni separatçılarının məhv edilməsi Azərbaycan əsgəri üçün adi məsələdir. Amma problem torpaqlarımızdakı "sülhməramlı" qüvvələrdir. Lakin bu o demək deyil ki, rus "sülhməramlıları" və erməni quldur sürüsünün özbaşınalıqlarına göz yumacağıq. Azərbaycan əsgərinin hər bir imkanı var".

**Siyasi şərhçi qeyd edib ki, Azərbaycan Rusiya qarşısında qəti şəkildə təxribatların qarşısının alınması tələbini qoymalıdır:** "Təkrarlanacağı təqdirdə bu məsələnin son nöqtəsinin hərbi yolla qoyulacağını bəyan etməliyik. Bütün ordu döyüş hazırlığı vəziyyətinə gətirilməli, iriçaplı silah və texnika döyüş vəziyyəti almalıdır. Qarşı tərəfə ciddi mesay verməliyik. Əgər cavabımız sərt olarsa, bundan sonra belə təxribatlar təkrarlanmaz".

**İsmayıl**



# Fransalı jurnalistlər Şuşa, Ağdam, Füzuli və Cəbrayılda olub

**Azərbaycanda səfərdə olan Fransanın ERE TV media qurumunun nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət edib.**

Bu barədə APA-ya Milli Məclisin deputatı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov məlumat verib.

O bildirib ki, fransalı jurnalistlər Heydər Əliyev Mərkəzində təşkil olunan sərgilərdə nümayiş etdirilən sənət əsərləri ilə tanış olub, Mərkəzin tarixi, fəaliyyət istiqamətləri, burda keçirilən tədbirlər haqqında məlumat alıblar: "Fransalı jurnalistlər işğaldan azad olunmuş ərazilərdə - Şuşa şəhərində, Ağdam, Füzuli Cəbrayıl rayonlarında olub, Ermənistanın işğalı dövründə törədilmiş dağıntılar, habelə bu gün dövlətimizin həyata keçirdiyi genişmiqyaslı quruculuq işlərini öz gösləri ilə görmək imkanı qazanıblar. Eyni zamanda Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşlarının işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi minaların zərərsizləşdirilməsi əməliyyatlarını müşahidə ediblər".

**S. Məmmədov qeyd edib ki, fransalı jurnalistlər Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dini və etnik dözümlülük mühitini nümayiş etdirən təhsil ocaqlarına, muzeylərə, mədəniyyət mərkəzlərinə də baş çəkiblər:** "Ümid edirəm ki, bu səfər Azərbaycan həqiqətlərinin Fransa ictimaiyyətinə, eyni zamanda, ERE TV-nin əməkdaşlıq etdiyi digər media qurumları vasitəsilə dünyaya çatdırılmasına mühüm töhfə olacaq".

# Bakının təhvil verdiyi ermənilər kameralara salındı

## Hadisə İrəvanda böyük qalmaqala səbəb olub



**Azərbaycanın Ermənistana 8 hərbi əsiri təhvil verməsi İrəvanda böyük gərginliyə və qalmaqala səbəb olub.**

Xatırladaq ki, Azərbaycan humanizm prinsipini rəhbər tutaraq, 7 fevral 2022-ci il tarixdə 8 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə qaytarıb. Həmin şəxslərin bir qismi 2021-ci ilin 16 noyabr tarixində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribatın qarşısı alınarkən saxlanılan hərbi qulluqçulardır.

Azərbaycan tərəfinin humanitar xarakterli bu addımının əvəzində Ermənistan tərəfi birinci Ermənistan-Azərbaycan müharibəsində öldürülmüş və kütləvi məzarlıqlarda basdırılması ehtimal edilən hərbi və mülki Azərbaycan vətəndaşları haqqında məlumatları, habelə bu qəbildən olan kütləvi məzarlıqların yerləri barədə məlumatı Azərbaycan tərəfinə verməlidir.

Ermənistana təhvil verilmiş ermənilər Sarkis Tarzyan, Vardges Balayan, Armen Petrosyan, Artur Babayan, Amayak Sarqsyan, Qurgen Qaloyan, Qriqor Kuregyan və Vaqarşak Maloyandır.

Lakin onlar İrəvana çatdıqdan sonra gərgin hadisələr yaşanıb.

Ermənistan mediasının verdiyi xəbərlərə görə, Bakının təhvil verdiyi ermənilərin istisnasız olaraq hamısı barədə cinayət işi açılıb. Onlar dindiriliblər, ifadələri alınıb.

Həmin şəxslərin ailə üzvləri və qohumları da dindirilmənin aparıldığı Hərbi İstintaq İdarəsinə hücum çəkiblər. Onlar binanın pəncərələrini daşa tutublar, içəri girməyə çalışıblar.

Hadisə yerinə çağırılmış polislər etiraz aksiyası keçirənləri binadan kənarlaşdırıblar.

Təhvil verilmiş hərbi əsirlərin valideynləri "Övladlarımızı dərhal azad edin!" qışqırıblar.

Dindirilmə 8 saat davam edib. Sonuclara görə, 8 nəfərdən 6-sı azad buraxılıb. Hərbi xidmətə çağırılmış iki nəfər isə Ermənistan Hərbi Polisinə aparılıb. (milli.az)

Onlara qarşı ittiham irəli sürüləcəyi ilə bağlı heç bir açıqlama verilməyib.

*Xatırladaq ki, Azərbaycanın indiyədək Ermənistana təhvil verdiyi erməni hərbi əsirlərin 14 nəfəri haqqında cinayət işi qaldırılıb.*

# Rəsmən möhürləndi

## Azərbaycan-Türkiyə arasında hərbi müttəfiqlik istənilən təhdidlərə tutarlı cavab olacaq



"NATO üzvü olan Türkiyənin Silahlı Qüvvələrinin çoxillik təcrübəsi Azərbaycan Ordusunda tətbiq edilməkdədir"

İsmayıl Qocayev

**Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə milli müdafiə nazirinin müavini Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə naziri Z.Həsənov Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.**

Hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlığa da müsbət təsir etdiyini deyən general-polkovnik strateji müttəfiqliyin dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu bildirib. Muhsin Dərə də öz növbəsində, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi qeyd edib. Görüşdə Bakıda keçiriləcək "Texnofest-2022" festivalında Azərbaycan Hərbi Hava Qüvvələrinin vasitələrinin və hərbi qulluqçularının iştirakı barədə fikir mübadiləsi aparılıb. Xatırladaq ki, tarixi Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya olunmasından sonra Azərbaycan-Türkiyə generaliteti arasındakı təmaslar artıb. Ekspertlərə görə, Şuşa Bəyannaməsindən irəli gələn müvafiq addımların atılması, strateji vəzifələrin yerinə yetirilməsi postmünaqişə dövründə hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsinə müstəsna töhfə olacaq. Bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı amil kimi çıxış edir. İki qardaş ölkənin birgə fəaliyyəti və ortaq təşəbbüsləri əsasında regionun geostrateji arxitekturası yenidən qurulur. Şuşa Bəyannaməsi hər iki ölkənin yeni hərbi-siyasi təhlükəsizlik çətiri formalaşdırmasına, yeni milli və regional təhlükəsizlik mexanizmi yaratmasına imkan verəcək.

**Türkiyənin Azərbaycandakı səfirliyinin keçmiş hərbi attaşesi, təqaüddə olan general-mayor Yücel Karaüz "Şərq"ə açıqlamasında deyib ki, Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamenti tərəfindən təsdiqlənməsi nəticəsində Azərbaycan-Türkiyə arasında hərbi müttəfiqlik rəsmən möhürləndi. Generalın sözlərinə görə, Bəyannamə Azərbaycan-Türkiyə qardaşlığını əbədiləşdirdi:** "Şuşa Bəyannaməsi Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını təmin edərək iki ölkə arasındakı strateji əməkdaşlığı müttəfiqlik səviyyəsinə qaldırdı. Bəyannamədə yer alan bir məqam da çox önəmlidir. Münaqişə, hərbi əməliyyatlar, regional və qlobal təhlükəsizlik problemlərinin həllində birgə fəaliyyət nəzərdə tutulur. Əgər tərəflərdən hər hansının ərazisinə, sərhədlərinə, suverenliyinə təhdid, təhlükə meydana çıxarsa, Azərbaycan və Türkiyə mövcud təhlükəni birlikdə aradan qaldıracaq. Müzakirələrdən sonra alınan qərar sayəsində hərbi birliklər koordinasiyalı şəkildə fəaliyyətə başlayacaq. Silahlı qüvvələrin ortaq fəaliyyəti və təhdidlərin aradan qaldırılması sadəcə təhlükə anında deyil, təhdid ortaya çıxmadan başlanmalıdır. Zəruri dəyərləndirmələr üçün Azərbaycan və Türkiyə Təhlükəsizlik Şuralarının birgə iclaslarının təşkili çox-çox önəmlidir. Şuşa Bəyannaməsində nəzərdə tutulanlar addım-addım həyata keçirilməkdədir. Zəruri məqamlardan biri də hər iki ölkənin silahlı qüvvələrinin və hərbi texnikalarının müasir dövrə uyğun olaraq yenidən təşkil edilməsi, təkmilləşdirilməsidir. NATO üzvü olan Türkiyənin Silahlı Qüvvələrinin çoxillik təcrübəsi Azərbaycan Ordusunda tətbiq edilməkdədir. Komanda birlikləri də bu çərçivədə təsis edilib. Atılan addımlarla və imzalanan mühüm sənədlərlə "bir millət, iki dövlət" fəlsəfəsi "bir millət, bir dövlət" ideyasına doğru yönəlməkdədir".

# Özbəkistanın fövqəladə və səlahiyyətli səfiri MEDİA-da olub



**Dünən Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov MEDİA Agentliyində olub.**

"Şərq" MEDİA-ya istinadən xəbər verir ki, Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qonaqlara qurumun fəaliyyəti və ölkədə media islahatlarının gedişi barədə məlumat verib.

Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyi ilə Medianın İnkişafı Agentliyi arasında əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanıb. Görüşdə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Soros Ermənistandan pulunu çəkməyib

## Vaxtı ilə QHT rəhbərləri olmuş, indi vəzifədə olan adamlar yenə əmkdaşlıqlarını davam etdirirlər





**Hazırda postmünaqişə dövrü olmasına baxmayaraq, Soros fondu Ermənistandakı layihələrin həyata keçirilməsi üçün vəsait xərcləməkdə davam edir. Məsələn, 2021-ci il ərzində bu fondun ayırdığı 1,2 milyon dollar vəsait Ermənistanda müxtəlif şəxslərə qrant şəklində paylanıb.**

"İravunk" nəşrində dərc olunan məqalədə bildirilib ki, fond bu dəfə fiziki şəxslərə qrant ayırmayıb. Qrant alanlar arasında dövlət məmurları, iqtidar deputatları, hətta səfirlər də var. Onların hamısı 2021-ci il parlament seçkilərində bu və yaxud digər dərəcədə kifayət qədər fəallıqları ilə seçiliblər. "Soros dəyərləri"nin keşikçiləri ümumilikdə 1,2 milyon dollar qrant alıblar. Nəşrdəki araşdırma bu sualla tamamlanıb: "Bütün bunların demokratiya ilə nə əlaqəsi var və nəyə görə bu hallar öz adı ilə - korrupsiya adlandırılmır?". Ekspertlərə görə, açıqlanan faktlar Ermənistanda bir sıra dairələrin hələ də Sorosun təsiri altında olduğunu isbatlayır.

**Siyasi şərhçi Elçin Mirzəbəyli "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan hakimiyyətində təmsil olunan şəxslərin əksəriyyəti, xüsusən hökumət üzvləri və parlamentdə təmsil olunan şəxslər vaxtı ilə Soros fondu ilə yaxın əməkdaşlıq edən QHT rəhbərləri olublar. Analitik bildirib ki, həmin şəxslərin Soros-la əlaqələri indi də davam etməkdədir:** "Əvvəlki layihələr yenə də həyata keçirilir. Lakin bəzi şəxslər hökumətdə təmsil olunduqları üçün layihələrə birbaşa özləri rəhbərlik etmirlər. Bu işi yaxın adamlarına tapşırıblar. Amma proses Ermənistanda mahiyyət etibarı ilə heç zaman səngiməyib. Nikol Paşinyan hakimiyyətə gəlməzdən öncə təhlillərimizdə konkret olaraq Ermənistana Soros Fondu tərəfindən ayrılan çoxsaylı vəsaitlərin miqdarını açıqlamışdıq. Hansı şəxsə nə qədər maliyyə verildiyini dəqiq faktlarla əks etmişdik. Onların arasında keçmiş hökumət üzvləri, maliyyə, təhsil nazirləri də var idi. Həmin şəxslərə illik 1, 1,2 milyon dollar vəsait ayrılırdı. Ermənistana Soros Fondunun ayırdığı vəsait bütün postsovet ölkələri ilə müqayisədə hər zaman çox olub".

İsmayıl Qocayev

# Bu da xoş xəbər

## Azərbaycan vətəndaşları Türkiyədə icbari tibbi sığortadan istifadə edə biləcək

Məlahət Rzayeva



**Gələcəkdə Türkiyə və Azərbaycan vətəndaşları qarşılıqlı şəkildə icbari tibbi sığortanın tərkibinə aid olan xidmətlərdən istifadə edəcəklər. Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev deyib. Sədrin sözlərinə görə, qardaş Türkiyə ilə səhiyyə sahəsində bir çox layihələr həyata keçirilir:**

"Vətən müharibəsində yaralanan qazilərə psixoloji yardımların göstərilməsi üçün icra olunan layihələrin genişləndirilməsi istiqamətində Türkiyə ilə birgə əməkdaşlıqlar olacaq. Bundan başqa, Türkiyə istehsalı olan "TÜRKOVAC" vaksini hazırda 3-cü fazada sınaq mərhələsindədir. Bununla bağlı  Azərbaycan və Türkiyənin səhiyyə qurumları arasında işçi qrupu səviyyəsində görüşlər keçiriləcək".

Qeyd edilir ki, Türkiyə Cümhuriyyəti Sosial Müdafiə Qurumunun sədri Cevdet Ceylanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev SGK-nın sədri Cevdet Ceylanın rəhbərlik etdiyi nümayəndə heyəti və Türkiyə Cümhuriyyətinin ölkəmizdəki səfiri cənab Cahit Bağcı ilə görüşüb. Nümayəndə heyətində SGK-nın Ümumi Tibbi Sığorta Baş İdarəsinin rəhbəri Gökhan Tuna Öztürk, İdarənin Səhiyyə Xidmətləri departamentinin rəhbəri Eyup Sabri Tezcan, sosial müdafiə ekspertləri Tolga Bal və Yusuf Demirci təmsil olunur. Görüş zamanı Z. Əliyev iki qardaş ölkə arasında əməkdaşlığın bütün istiqamətlərdə olduğu kimi səhiyyə və tibb sahələrini də əhatə etdiyini bildirib:

"Qardaş ölkə həkim mütəxəssislərin müxtəlif ixtisaslar üzrə təhsil almasına, bilik və bacarıqlarının artmasına hər zaman böyük töhfə verir. Bu da əlbəttə ki, səhiyyənin inkişafı ilə yanaşı iki qardaş ölkə arasında əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayır". Z.Əliyev qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasında ötən il imzalanan Anlaşma Memorandumu iki qurum arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından vacibdir. Öz növbəsində Cevdet Ceylan Türkiyə Respublikasında əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlər barədə məlumat verib. C.Ceylan əlavə edib ki, öz ölkəsinin sözügedən sahədə əldə etdiyi 10 illik təcrübəsini qardaş ölkə ilə bölüşəcəyindən məmnundur. Qeyd edək ki, Anlaşma Memorandumu çərçivəsində imzalanan 3 illik Fəaliyyət Planının builki mövzusu "İcbari tibbi sığortanın maliyyələşdirilməsi və informasiya texnologiyalarının tətbiqi"dir. 10 fevral tarixinədək davam edən səfər müddətində nümayəndə heyəti mövcud qanunverici baza, qurumların aktual balansları, sığorta haqqının müəyyən edilməsi, həvəsləndirici əlavələrin tətbiqi ilə bağlı məlumat əldə edəcəklər. Fəaliyyət Planının icrası məqsədi ilə görülən tədbirlər çərçivəsində icbari tibbi sığortanın tətbiqinin Türkiyə təcrübəsinə əsaslanaraq təkmilləşdirilməsinə dair təkliflər hazırlanacaq.

**Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-infeksionist Mərdan Əliyev Türkiyə və Azərbaycan vətəndaşlarının qarşılıqlı şəkildə icbari tibbi sığortanın tərkibinə aid olan xidmətlərdən istifadə edə biləcəyini əsaslı irəliləyiş adlandırdı:**

- Qardaş Türkiyə icbari tibbi sığorta sahəsində böyük təcrübəyə malikdir. Bizim onlardan çox şey öyrənə bilərik. Türkiyə təcrübəsindən faydalanmaq ancaq xeyrimizə olar. Türkiyə 44 günlük Vətən müharibəsində Azərbaycana mənəvi dəstək oldu, müharibədən sonra da qazilərimizin, qəhrəman əsgər və zabitlərimizin müalicəsinə böyük dəstək verdi və bu xeyirxah əmələ yenə də davam edir.  Əgər iki ölkə arasında icbari tibbi sığorta xidmətlərindən qarşılıqlı istifadəyə dair müqavilə olarsa, hər iki ölkə vətəndaşları bu xidmətlərdən yararlana biləcək. Məsələn, Azərbaycan vətəndaşı Türkiyə ərazisində olarkən tibbi xidmətə ehtiyacı yaranarsa, tibbi yardım ala biləcək, Türkiyə dövləti hesabına müalicə olunacaq. Eyni qayda ilə Türkiyə vətəndaşları da. Lakin burda bir məsələ var; etiraf etməliyik ki, Azərbaycan səhiyyəsi ilə Türkiyə səhiyyəsi arasında yerlə-göy qədər fərq var. Azərbaycan vətəndaşı Türkiyə ərazisində tibbi xidmət göstərmək zərurəti yarandıqda, problem yoxdur, lazımi müayinə və müalicə olunacaq. Amma Türkiyə vətəndaşı Azərbaycanda xəstələnsə və tibbi xidmətə ehtiyacı yaransa o, lazımi tibbi xidmət ala biləcəkmi? Sual budur. Gərək bu şəxs mütləq özəl tibb müəssisəsinə yönləndirilsin. Dövlət tibb müəssisələrini əsassız tərifləməyin yeri yoxdur. Bizdə dövlət tibb müəssisələri gərəkən səviyyədə deyil. Türkiyə-Azərbaycan müştərək tibb müəssisələri icbari tibbi sığorta xidmətinə cəlb edilsə, bu, yaxşı olar. Belədə vətəndaşlar bu müəssisələrə yönləndirilər.

# Bakı cavab gözləyir

## 8 erməni hərbçini qarşı tərəfə xoş niyyətlə qaytardıq



"Ermənistan da məlumatları Azərbaycan tərəfinə təqdim etməyə borcludur"

**Ermənistan XİN sözçüsünün dedikləri və Azərbaycan XİN-in cavabı göstərdi ki, İrəvan 8 erməninin qarşılığında kütləvi məzarlıqların koordinatlarının verilməsi anlaşmasından imtina edir.**

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaan Unanyan deyib ki, hökumət bu məsələdə təktərəfli öhdəlik götürməyib. Lakin XİN rəsmisi 8 erməninin qarşılığında məzarlıqların koordinatının verilməsi razılaşmasını təkzib etməyib. Rəsmi Bakının etiraz açıqlaması da razılaşmanın olduğunu təsdiqləyir. Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, İrəvanın öz öhdəliyindən imtinası beynəlxalq humanitar hüquq normalarına və humanizm prinsipinə hörmətsizliyin ən ifrat nümunəsidir. Vurğulanıb ki, Ermənistan tərəfi 1949-cu il Cenevrə Konvensiyası və onun muvafiq protokollarına uyğun olaraq, sistemli surətdə qətlə yetirilən mülki və hərbi Azərbaycan vətəndaşlarının basdırıldıqları yerlər barədə məlumatları Azərbaycan tərəfinə təqdim etməyə borcludur: "4 fevral tarixində videoformatda keçirilmiş görüşün gündəliyində duran əsas məsələlərdən biri məhz humanitar məsələlər olub. İtkin düşmüş 4000-nə yaxın Azərbaycan vətəndaşının taleyinə aydınlıq gətirilməsinə görə məsuliyyət daşıyan Ermənistan tərəfi isə bu məsələdə əməkdaşlıq edəcəyinə vəd verib. Biz beynəlxalq ictimaiyyəti Ermənistan tərəfinə təzyiq göstərməyə, məsuliyyətli davranmağa və öz öhdəliklərinə əməl etməsini tələb etməyə çağırırıq.

**Politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan hökuməti daxilində proseslərə vahid yanaşma yoxdur.** Ekspert xatırladıb ki, Baş nazir Nikol Paşinyan sərhədlərin delimitasiya və demarkasiyasına razı olduqlarını desə də, XİN başçısı A.Mirzoyan hələ də "münaqişənin həllindən" danışır. Sabiq xarici işlər naziri Ayvazyan da üçtərəfli sazişdə kommunikasiyaların bərpasının, Zəngəzur dəhlizi ilə bağlı müddəanın olmamasından dəm vururdu: "Ermənistanda nəinki ikili, hətta üçlü və dördlü çıxışların, ziddiyyətli mövqelərin şahidi oluruq. Deməli, İrəvanda vahid hökumət yoxdur. Paşinyan hakimiyyətə tam olaraq nəzarət edə bilmir. Ermənistanda köhnə klanların, Rusiyaya yaxın dairələrin, diaspora təşkilatlarının, Qərbdən maliyyələşən Sorosçu qüvvələrin nümayəndələri var. Hamısının da fərqli yanaşmaları mövcuddur. Ötən gün baş tutan dördtərəfli görüşdə itkin Azərbaycan vətəndaşlarının taleyi ilə bağlı razılıq əldə olunması, bununla bağlı qarşılıqlı addımların atılmasına dair anlaşma humanizm dəyərlərinin prinsipləridir. Rəsmi Bakı öz humanistliyini dərhal göstərdi və 8 erməni hərbçisini, cinayət törətmiş şəxsləri əfv edərək Ermənistana təhvil verdi. Növbəti dəfə xoş niyyət göstərdik və onları qaytardıq".

**T.Rzayevə görə, əgər İrəvan hökuməti də sülh və əmin-amanlıq üçün addım atmaq niyyətindədirsə, üzərinə götürdüyü öhdəliklərə qeyd-şərtsiz əməl etməlidir:** "İtkin düşmüş şəxslər barədə məlumat onların ailələri üçün olduqca mühümdür. 4000-ə yaxın ailə uzun illərdir itkin düşmüş yaxınlarından xəbər almaq ümidi ilə yaşayır. Yaxınlarının harada, necə basdırıldıqlarını bilmək istəyirlər. Dördtərəfli görüşdə bununla bağlı konkret yazılı anlaşma, müddəa olmasa belə, bu, humanizm məsələsidir. Bu məsələ Ermənistanın sülhün imzalanması yolunda iradəsinin olub-olmamasını da göstərir".

İsmayıl Qocayev

# Putinlə Makron arasında "Qarabağ söhbəti"

## Bu görüşü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində pozitiv qiymətləndirmək olar



**Moskvada Rusiya Prezidenti Vladimir Putinlə Fransanın dövlət başçısı Emmanuel Makron arasında görüş 5 saatdan bir qədər çox davam edib. Liderlər öncə Kremlin birinci binasının nümayəndəliyində təkbətək görüşüblər. Putin ölkələr arasında təmasların heç vaxt dayanmadığını, lakin şəxsi görüş formatında müzakirə edilməli olan bir çox məsələlərin yığılıb qaldığını bildirib.**

O qeyd edib ki, ötən ilin 11 ayı ərzində ölkələr arasında ticarət dövriyyəsinin həcmi 70 faizdən çox artaraq pandemiyadan əvvəlki səviyyəyə çatıb: "Bu, təbii ki, ümumilikdə iki ölkə arasında münasibətlərin yaxşılaşması üçün belə xoş ab-hava yaradır". Putin Moskvanı narahat edən təhlükəsizlik məsələlərinin həllində iştirakına görə Parisə təşəkkür edib: "Deməliyəm ki, bütün bu illər ərzində Fransa Avropa təhlükəsizliyinin fundamental məsələlərinin həllində ən fəal iştirak edib". Fransa Prezidenti Emmanuel Makron da Putinlə apardığı danışıqları mənalı adlandırıb və təhlükəsizlik təminatları üzərində birgə işləmək barədə razılığa gəldiyini açıqlayıb: "Avropada sabitliyin və təhlükəsizliyin yeni nizamını təmin etmək üçün birgə işləmək arzusundayıq". Makron hesab edir ki, Avropada sabitlik və təhlükəsizliklə bağlı sazişlərə yenidən baxılması Avropa ölkələrinin ziyanına olmamalıdır: "Düşünmürəm ki, yeni şərtlərin formalaşması sazişlərə və ya fundamental prinsiplərimizə qismən yenidən baxılması və ya Avropa dövlətlərinin hüquqlarının pozulması yolu ilə baş verməlidir. Rusiya 30 ildir qüvvədə olan müqavilələrə yenidən baxmaq istəyir. Qitəmizin təhlükəsizliyi bizdən keçmişin səhvlərindən qaçmağı tələb edir. Ötən illər ərzində Rusiya ilə qurulan strateji və tarixi dialoq irəliləyişə kömək edə bilər". O, həmçinin vəziyyəti yumşaltmaq üçün yaxın həftələrdə ortaq mövqelər tapmağın zəruriliyini bəyan edib.

Liderlərin bir araya gəlməsi zamanı çəkilən görüntülər də dünya mətbuatında müzakirə predmetinə çevrilib. Putin Makronu əli cibində qarşılayıb, dövlət başçıları uzun masa arxasında əyləşiblər. Qəribəlik bununla da bitməyib. Beş saatdan çox davam edən görüşdən sonra mətbuat konfransı keçirilib. Ardınca isə Rusiya lideri zaldan çıxıb, sanki onu çağırırmış kimi əli ilə Emmanuel Makrona işarə edib. Lakin Putin fransalı həmkarını gözləmədən qapıya doğru yönəlib və zalı tərk edib. Makron otaqda tək qalıb və Kreml rəhbərinin arxasınca getməli olub. Putinin Makronla danışdığı zalda 1-ci Nikolayın heykəli də olub. Nikolayın dövründə Rusiyaya "Avropanın jandarmı" deyirdilər. O, başını qaldıran dövlətə qoşun yeridir, cəzalandırırdı. Rus maarifçiləri və ziyalıları buna görə çox utanırdılar..

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Fransa Qərbin Rusiyaya qarşı hədələyici orbitindən kənara çıxaraq Moskva ilə isti münasibətlərin qorunub saxlanılmasına önəm verən ölkədir. Analitikə görə, Putin-Makron görüşündə liderlərin müzakirə predmetinə gətirdiyi mövzuların hamısını bir yazıya sığışdırmaq çətindir:** "Liderlər 5 saat davam edən görüşdən sonra media önünə çıxıblar. Vladimir Putin Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının rolundan danışarkən yenidən arxaik ifadəyə müraciət edib. Mövcud situasiya ətrafındakı müzakirələri "Dağlıq Qarabağ ətrafındakı vəziyyətin nəzərdən keçirilməsi" kimi dəyərləndirib. Olsun, ümid edirik ki, Vladimir Putin sadəcə leksikonunda möhkəm qərar tutduğuna görə "Dağlıq Qarabağ" ifadəsini lüğət fondundan silə bilmir. Amma nə olursa-olsun, reallıqda Dağlıq Qarabağ adlı inzibati ərazi vahidi yoxdur. Fransa liderinin fevralın 4-də keçirdiyi görüşün yekununa dair bəyanatda ATƏT-in Minsk qrupu həmsədrlərinin adları çəkilməsə də, Putin yenidən həmsədrlərin regionda humanitar və sosial-iqtisadi problemlərin həllindəki əhəmiyyətini qabardıb. Azərbaycan həmsədrlərin mövcudluğuna etiraz etmir, bu, Bakı üçün bəlkə də üçüncü dərəcəli məsələdir. Lakin madam ki, bu institut varsa, o zaman effektiv nəticələr hasil edən praktiki fəaliyyətlə məşğul olmalıdır. Bakı tələb edir ki, həmsədrlər regional sülh və təhlükəsizliyə təhdid yaradan elementləri, o cümlədən erməni revanşizminin boğulmasında əməli fəaliyyət sərgiləsin və qızışdırıcı, qıcıq yaradan, Ermənistanı şirnikləndirən ifadələrdən çəkinsin. Putinin həmsədrlərə vurğu etməsini formal etik diplomatik jest kimi qiymətləndirmək olar. Çünki elə Rusiyanın özünün təşəbbüsü ilə qəbul edilən 10 noyabr, 11 yanvar və 26 noyabr bəyanatlarında həmsədrlərə postmünaqişə dövrü üçün hər hansı rol tanınmayıb. Rusiya Azərbaycanla Ermənistan arasında açıq qalan məsələləri özünün monopoliyasında tənzimləmək istəyir, amma Azərbaycanın qətiyyəti, Türkiyənin Bakıya dəstəyi bu məsələdə Kremlin önünə baryer çəkir. Bakı bu məsələdə Qərbə də təkəlçilik vermir, əgər sülh və etimad quruculuğundan söhbət gedirsə, burada bərabərsəviyyəli iştirak mexanizminin qurulmasını israrla təklif edir və nəticəyə nail olur. Makron Putinlə mətbuat konfransında münaqişədən sonrakı periodda Azərbaycan-Ermənistan liderlərini bir araya gətirməsindən, bunun erməni hərbçilərin mübadiləsi ilə nəticələnməsindən sevinc hissi keçirərək "axır ki, Fransanın da bir rolu var" mesajını verdi".

*Ekspert vurğulayıb ki, Makron ya biləərəkdən, ya da bilməyərəkdən Rusiya sülhməramlılarının fəaliyyətini Azərbaycan-Ermənistan sərhədinə proyeksiya edib:* "Onun Putinə "sizin hərbçilərin Azərbaycan və Ermənistan sərhədində çətin dövrlərdə oynadığı rolu alqışlayıram" deməsi ikibaşlı məna yükünə malikdir. Çünki Rusiya hərbçiləri sərhədə dislokasiya edilməyiblər, onlar yalnız Laçın dəhlizində xidmət keçirlər. Makron bunu bilməyərəkdən deyibsə, o deməkdir ki, hələ də mövcud vəziyyətə dair beynində aydın təsvirlər cızа bilməyib.

Biləərəkdən deyibsə, o zaman, ya Rusiya hərbçilərinin sərhədə gəlməsində maraqlıdır. Ya Ermənistanda xidmət edən və Azərbaycanla sərhəddə dislokasiya olunan Rusiya hərbçilərini nəzərdə tutur. İstənilən halda Putin-Makron görüşü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində pozitiv impuls ötürücülüyünə malikdir".

**İsmayıl Qocayev**

### Media Reyestri 6 ay müddətində yaradılacaq

**Media Reyestri 6 ay müddətində yaradılacaq.**

Bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı "Media haqqında" qanunda əksini tapıb.

Fərmana əsasən, Medianın İnkişafı Agentliyi Media Reyestrinin yaradılmasını altı ay müddətində təmin etməli və həmin bazanın Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görməlidir.

## "Prezidentimizin səhhəti çox yaxşıdır"

### Çavuşoğlu Ərdoğanın səhhəti barədə açıqlama verib



**"Prezidentimizin səhhəti çox yaxşıdır, səsi də çox yaxşı gəlir. Davamlı olaraq telefon danışıqları da aparır".**

APA-nın NTV telekanalına istinadən verdiyi xəbərə görə, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. O, özünün də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon əlaqəsi saxladığını vurğulayıb: "Çox şükür, səsi yaxşı gəlirdi".

Nazir Ərdoğanın Birləşmiş Ərəb Əmirliklərinə planlaşdırılan səfərinə də toxunub. Çavuşoğlu qeyd edib ki, səfərin reallaşması Türkiyə Prezidentinin koronavirus testlərinin nəticələrindən asılı olacaq: "Bu, testlərin nəticələrindən asılıdır. Səfər uzun müddət əvvəl planlaşdırılıb. 15 fevralda Dubay EXPO-da Milli Gün olacaq, inşallah, o zamana qədər sağalar".

*Qeyd edək ki, Ərdoğan və xanımı COVID-19-un Omicron ştamına yoluxub.*



# Dəyişikliyi görəcəyik

## "DİN-in tabeliyində paytaxtda hərəkətin tənzimlənməsi, yolların daha təhlükəsiz olması təmin ediləcək"

**Bakı Nəqliyyat Agentliyinin "Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi" MMC Daxili İşlər Nazirliyinin tabeliyinə verilib. Bununla bağlı fevralın 7-də Prezident İlham Əliyev fərman imzalayıb. "Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərmanında qeyd edilib:**

"Agentliyin balansında olan və "Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi"nin funksiyalarının təmin edilməsi üçün zəruri olan dövlət əmlakının və maddi-texniki bazanın Daxili İşlər Nazirliyinin balansına verilməsi bir ay müddətində təmin edilməlidir".

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə bildirib ki, artıq sistemin fəaliyyətində dəyişiklik görəcəyik:**

"Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi" keçmiş Nəqliyyat nazirliyinin tabeliyində yaradıldı. Qurumdan çox böyük gözləntilərimiz var idi. Təhlükəsiz yolların təmin edilməsi, qəzaların, tıxacların aradan qaldırılması üçün mühüm tədbirlərin görüləcəyinə ümid bəsləirdi. Lakin bu mərkəz gözləntiləri doğrultmadı. Daha sonra sistem BNA-nın nəzarətinə verildi. Onlar sistemi işlək vəziyyətə gətirməyə çalışdılar. Təəssüf ki, sistem tam gücüylə çalışa bilmədi. İndi bu sahənin DİN-in tabeliyinə verilməsi müsbət addımdır. Çünki nazirliyin bu sistemi dirçəltmək üçün resursları və mütəxəssisləri var. DİN-in tabeliyində paytaxtda hərəkətin tənzimlənməsi, yolların daha təhlükəsiz olması təmin ediləcək".

**Xanlar ƏLİBƏY**



# "Ermənistanla vasitəçisiz təmaslara keçmək lazımdır"

## Qulamhüseyn Əlibəyli: "Azərbaycan iqtidarının indiyə qədərki siyasəti, davranışları qənaətbəxşdir"

**Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan və Ermənistanın rəhbərliyi arasında baş tutmuş növbəti görüşdə dövlət başçısı İlham Əliyev rəsmi Bakının mövqeyini bir daha ortaya qoydu. Görüşdə səsləndirilən fikirlər Azərbaycanın mövqeyi ilə üst-üstə düşdü.**

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bəyanatı da Azərbaycanın lehinə oldu. Bəyanatda Moskva, Soçi və Brüsseldə keçirilmiş görüşlərin mahiyyətinə uyğun olaraq Minsk qrupuna istinad yer almadı. Digər tərəfdən sənəddə "Dağlıq Qarabağ münaqişəsi" də əks olunmadı. Görünür, mövcud reallıq artıq həmsədr Fransa tərəfindən də qəbul olunmaqdadır. Fransa görüş təşəbbüsünü Minsk qrupunun həmsədri kimi yox, Avropa İttifaqının sədri kimi irəli sürmüşdü. Bu isə onu göstərir ki, Brüsseldə təsbit olunmuş sülh gündəliyi davam edir. Həmin gündəliyin əsasını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələləri özündə ehtiva edir. Yeganə problem, Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliyə əməl etməməsidir. Azərbaycan-Ermənistan rəhbərliyi arasındakı təmaslar, aparılan müzakirələr, **İrəvanın cığallığı və bölgədə baş verənlərlə bağlı "Şərq"ə danışan Aydınlar Partiyasının sədri, sabiq millət vəkili Qulamhüseyn Əlibəyli deyib ki, qısa zamanda köklü dəyişikliyə nail olmaq imkansızdır. Partiya rəhbərinin sözlərinə görə, uzun müddət davam etmiş gərgin münasibətlər normallaşma prosesinin başlanmasını da yubadır...**

**- Qulamhüseyn bəy, rəsmi Bakının İrəvanla danışıqlarını, aparılan müzakirələri necə dəyərləndirirsiniz? Nəticələr sizi qane edirmi?**

- Azərbaycan iqtidarının Ermənistanla bağlı siyasəti uğurludur. Sadəcə, Ermənistanın bic siyasəti normallaşma prosesinin sürətlənməsinə, öhdəliklərə əməl olunmasına imkan vermir. Amma Ermənistanın qaçışı yoxdur. Əvvəl-axır rəsmi Bakının tələblərinə boyun əyməli olacaq. Müharibə vəziyyəti başa çatıb. Ermənistan Azərbaycanla bir coğrafiyada, qonşu ölkə kimi yaşamağa məcburdur. Regiondan nə Ermənistan, nə də biz köçüb başqa yerə gedəsi deyilik. Cənubi Qafqazda sabitliyin yaranması, normal əməkdaşlığın təmin olunması üçün istənilən danışıqlara hazır olmalıyıq. Eyni zamanda fərqli variantları da gözdən keçirməliyik. Siyasi mövqeyimiz və davranışlarımız qənaətbəxşdir. Çalışırıq ki, məsafəni addım-addım qət edək və problemləri mərhələli şəkildə çözək. Təbii ki, bütün məsələləri qısa zamanda və bir dəfədə həll etmək imkansızdır. Uzun müddət erməni cəmiyyətində anti-türk, anti-Azərbaycan mövqeyi hakim olub. Münasibətlər düşmənçilik səviyyəsində saxlanılıb. Əlaqələrin normallaşması, düşmənçiliyin aradan qaldırılması istiqamətində Azərbaycanın iradəsi ortadadır. Ermənistan nə qədər üzərinə götürdüyü öhdəliklərdən qaçsa da, məsuliyyətini təkzib etsə də, beynəlxalq təşkilatlar vasitəsi ilə, yaxud birbaşa özümüz müəyyən yollarla İrəvana təzyiq göstərməliyik. Ermənistanı razılaşmaya əməl etməyə məcbur buraxmalıyıq.

**- Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməkdən boyun qaçırır. Belə bir rejimlə müzakirələr nə qədər effektli olacaq?**

- Ermənistanın siyasi elitası, hökumətləri idarə edən qruplar 30 il müddətində Azərbaycana, o cümlədən Türkiyəyə düşmən ölkələr kimi baxıblar. Eyni zamanda erməni cəmiyyəti anti-Azərbaycan, anti-Türkiyə mövqeyinə köklənib. 44 günlük müharibədə məğlub olsalar da, onlara təlqin edilən "həqiqətlərin" mif və puç olduğunu görsələr də, beyinlərinə hopdurulmuş nifrət siyasətindən ayrıla bilmirlər. Şübhəsiz, qısa dönəmdə erməni cəmiyyətindəki əhval-ruhiyyəni dəyişmək çox çətindir, hətta qeyri-mümkündür. Ermənistandakı revanşist qüvvələr, "Qarabağ klanı"na məxsus siyasilər də prosesin qarşısını almaq üçün əllərindən gələni edirlər. Əhalinin düşüncəsini qarışdırır, müxtəlif təxribatlarla düşmənçiliyin qalmasına xidmət göstərirlər. Müəyyən kəsim hələ də acı məğlubiyyəti qəbul etmək istəmir. Zənn edirlər ki, hansısa ölkənin dəstəyi ilə yenə də Azərbaycan torpaqlarını işğal etmək mümkündür. Ermənistan cəmiyyətində vahid mövqe yoxdur. Vahid mövqe olmadığına görə, ölkədə müxtəlif, bir-birinə zidd olan yanaşmalar, baxışlar hökm sürməkdədir. Biz bunların hamısını nəzərə alırıq. Lakin gec-tez sağlam düşüncə qalib gəlməli, hökumətlə ictimaiyyət işıq gələn tərəfə üz tutmalıdır.

**- Azərbaycan-Ermənistan rəhbərliyi arasında təmaslar ya Rusiyanın, ya da Qərb ölkələrinin vasitəçiliyi ilə həyata keçirilir. Sizcə, hansı tərəfin vasitəçiliyi, hansı format bizim üçün daha sərfəlidir?**

- Ən azından indiki şəraitdə Azərbaycan və Ermənistan arasında vasitəsiz birbaşa təmaslar bir qədər çətindir. Daha doğrusu, bu çətinlik sırf ermənilər üçündür. Məğlub olan və düşmənçiliyi pik həddə çatdıran Ermənistan Azərbaycanla birbaşa danışıqlarda, ikili müzakirələrə özünü "hazır" hiss etmir. Rəsmi Bakı isə dəfələrlə bəyan edib ki, Ermənistanla heç bir vasitəçi olmadan danışıqlara, müzakirələrə hazırdır. Mən də düşünürəm ki, Azərbaycan-Ermənistan arasında birbaşa dialoqlara üstünlük vermək lazımdır. Çünki istənilən vasitəçi dövlət, üçüncü ölkə prosesdə öz maraqlarını da güdəcək. Hər bir ölkənin geosiyasi və iqtisadi maraqları var. Rusiyanın bölgə ilə bağlı öz maraqları varsa, eyniylə ABŞ-ın, Avropa ölkələrinin də maraqları mövcuddur. Fransanın, Prezident Makronun niyyəti bizə bəlli deyilmi?! Bütün vasitəçilər tərəflər hesabına öz maraqlarını təmin etmək məqsədi güdürlər. Vasitəçisiz təmaslara keçmək lazımdır.

> *"Ümid edirik, 4 il ərzində Azərbaycan Qarabağda nəzarəti öz üzərinə götürəcək. Xankəndi və ətraf bölgədə suverenliyimiz bərpa olunandan sonra rus qoşunlarının Qarabağdan çıxmasını tələb etməliyik"*

**- Qarabağda "sülhməramlı" missiyanı icra edən Rusiya hərbi kontingenti ilə bağlı ölkə ictimaiyyətində narazılıq artmaqdadır. Rus qoşunlarından xilas yolu nədir?**

- Torpaqlarımıza "sülhməramlı" adı ilə daxil olan rus hərbçiləri öz missiyalarından başqa hər cür işlə məşğul olurlar. Açıq şəkildə ermənilərin müdafiəsini təşkil edir, onları təxribata hazırlayır, qolqanad açmalarına, "legitimləşməsinə" nail olmağa çalışır. Aydın məsələdir ki, "sülhməramlılar" öz mandatlarına uyğun olmayan əməllərlə səlahiyyətlərini dəfələrlə aşıblar. Bunun da səbəbi odur ki, Rusiya hərbi kontingentinin Azərbaycandakı hüquqi statusu müəyyən olunmayıb. Azərbaycan hökuməti rəsmi şəkildə Moskvaya müraciət etməlidir ki, rus "sülhməramlılarının" statusu mütləq rəsmiləşdirilsin. Bu məsələ tənzimlənməlidir ki, rus "sülhməramlıları"nın qanundan kənar addımları dərhal müəyyən edilsin və qarşısı alınsın. Onların özbaşına hərəkətləri səlahiyyətin qeyri-müəyyən olmasından irəli gəlir. Hamıya bəllidir ki, rus əsgəri girdiyi yerdən öz xoşuna çıxmaq istəmir. Amma bu yaxınlarda Qazaxıstanda yaşananları müşahidə etdik. KTMT adı altında Orta Asiya ölkəsinə daha çox rus qoşunları daxil olmuşdu. Lakin bir həftə ərzində rus hərbçiləri Qazaxıstanı tərk etdilər. Ümid edirik, 4 il ərzində Azərbaycan Qarabağda nəzarəti öz üzərinə götürəcək. Xankəndi və ətraf bölgədə suverenliyimiz bərpa olunandan sonra rus qoşunlarının Qarabağdan çıxmasını tələb etməliyik. Daha doğrusu, "sülhməramlıların" torpaqlarımızda qalma müddətinin uzadılmasından imtina etməliyik. Azərbaycanın buna gücü çatır.

**- Şuşa Bəyannaməsinin hər iki ölkə tərəfindən rəsmən təsdiqlənməsi bölgədəki proseslərin gedişinə, Azərbaycan-Ermənistan danışıqlarına necə təsir göstərəcək?**

- Şübhəsiz, bütün proseslərə əhəmiyyətli təsir göstərəcək. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə arasında rəsmi hərbi müttəfiqliyi təsdiqlədi. Qardaşlığımızın, mənəvi bağlarımızın bir daha hüquqi müstəvidə rəsmiləşdirilməsidir. Həmçinin, Türkiyənin regional proseslərdə hərbi iştirakı hadisələri lehimizə çevirən mühüm amildir. Şuşa Bəyannaməsi sadəcə hərbi gücümüzün artması, təhlükəsizliyimizin təmini deyil, eyni zamanda Cənubi Qafqazda və türk dünyasında sülh və sabitliyin təşkil olunmasıdır. Hər baxımdan çox əlverişli, faydalı sənəddir. Bundan sonrakı mərhələdə hərbi əməkdaşlığın istiqamətləri, hərbi bazanın yaradılması, birgə müdafiə dəstələrinin təşkil olunması, ortaq təlimlərin keçirilməsi müzakirə olunacaq.

**İsmayıl Qocayev**

# İslahatlara ciddi ehtiyac var

## Adil Qeybulla: ”Təcili tibbi yardım hər çağırışa getməməlidir, bu, insanlara düzgün təbliğ olunmalıdır”



**Azərbaycan Tibb Universitetində ”Təcili Tibbi Yardım Sistemi və Akademik Tədrisdə Təcili Tibb” mövzusunda simpozium keçirilib. Məqsəd Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində prioritetləri müəyyənləşdirmək və sübutlara əsaslanan inkişaf xəritələrini təqdim etməkdir.**

Simpoziumda Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Nümayəndəsi və Ölkə Ofisinin rəhbəri Dr. Hande Harmancı və Azərbaycan səhiyyə nazirinin müavini Nadir Zeynalov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) nümayəndəsi Araz Nəsirov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Türkiyə Səhiyyə Nazirliyinin nümayəndələri, Klinik Tibbi Mərkəz, Respublika Klinik Hospitalı, Sumqayıt və Şamaxı şəhərlərində fəaliyyət göstərən Təcili Tibbi Yardım xidmətinin əməkdaşları, həmçinin təcili tibbi yardım üzrə beynəlxalq ekspertlər iştirak ediblər.

Simpoziumdan sonra ”Xəstəlik hallarının idarə olunması” və ”Təcili Yardım Şöbəsinin İdarə Olunması” kurslarının tədrisinə başlanılıb. ”Xəstəlik hallarının idarə olunması” kursu 6 müxtəlif dərsdən ibarətdir. Hər biri həftədə iki dəfə olmaqla (səhər və günorta kursları) tədris ediləcək. Eyni zamanda tədrisi nəzərdə tutulan kurslardan biri olan Təkmil Həyat Dəstəyi (ACLS) iki növbədə 5 yarım gün davam edəcək. Kursun yekununda iştirakçılar təcili yardımda tez-tez rast gəlinən 6 halın idarə edilməsi üsullarını 3 müxtəlif situasiya məsələsi vasitəsilə dərindən mənimsəyəcək. Həmçinin ürəyin dayanmasına və ya ürək-damar xəstəliklərinə səbəb olan həyati təhlükə yaradan halların mütərəqqi tibbi prosedurlar, dərmanlar və üsullardan istifadə etməklə aradan qaldırılmasına dair ən yeni məlumat əldə edəcəklər. Bundan başqa, BMT-nin Yol Təhlükəsizliyi Fondunun maliyyələşdirdiyi ”Təcili Yardım Şöbəsinin İdarə Olunması” kursu təhlükəsiz, yüksək keyfiyyətli təcili tibbi yardım xidməti təmin etmək, eləcə də təcili tibbi yardım işini səmərəli reallaşdırmaq, müvafiq sahə üzrə rəhbər şəxslərin liderlik və idarəetmə potensialını inkişaf etdirmək məqsədi daşıyır. Kurs iştirakçıların Azərbaycanda təcili tibbi yardımın mövcud vəziyyətini düzgün analiz etməyə, ölkə daxilində təcili tibbi yardım xidmətinin keyfiyyətini yaxşılaşdırmağa, həmçinin effektiv səhiyyə siyasəti yaratmağa yardım edəcək bilik və bacarıqlarını artırmağı hədəfləyir. Kurs yekunlaşdıqdan sonra 11-12 fevral tarixlərində ÜST-nin təcili yardım üzrə eksperti Dr. Li Uollisin və beynəlxalq mütəxəssislərin iştirakı ilə təcili yardım sahəsində fəaliyyət üçün yol xəritəsinin hazırlanması üzrə görüş keçiriləcək.

**Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb elmləri doktoru, həkim-cərrah Adil Qeybulla ”Şərq”ə açıqlamasında bildirib ki, qurumun adı təcili və təxirəsalınmaz tibbi yardım şöbəsi olduğu üçün bəzən insanlar elə bilir ki, hər problemi onlar həll etməlidir:**

”Məsələn, sahə həkiminin təyinatı ilə bağlı evdə sistem qoşmaq, inyeksiyalar vurmaq kimi məsələlərdə təcili yardıma müraciət edilməməlidir. Təcili yardımın üzərinə düşən iş, məsuliyyət çoxdur. Orada çalışan həkimlərin yükü həddindən artıq çox olur. İndiki zamanda təcili yardım istiqamətində islahatlara çox ciddi ehtiyac var. Məsələ xidmət göstərməklə bitmir. Struktur formalarında dəyişikliklər edilməlidir. Həkimlərin vəzifələri insanlara düzgün təbliğ olunmalıdır”.

**A.Qeybulla onu da əlavə edib ki, pandemiya dövrünü nəzərə alsaq, hazırda yaxmaların götürülməsi ilə əlaqədar poliklinikaların da işi çoxdur:**

”Özəl qurumlar, TƏBİB-in öz laboratoriyalarından başqa təcili tibbi yardım xidmətləri yaxma götürməklə məşğul olmamalıdır. Ağır xəstələrə ilkin yardım göstərə bilərlər. Eyni zamanda əhali düzgün maarifləndirilməlidir. Təcili tibbi yardım hər bir çağırışa getməməlidir. Dünyanın inkişaf etmiş dövlətlərinə baxaq, Avropada, Türkiyədə bu sistem necə işləyir? Ölkəmizdə isə insanlar elə bilir ki, təcili yardım gəlib, bütün məsələləri həll etməlidir. İnanıram ki, Səhiyyə Nazirliyinin rəhbərliyi yeniliklərə nail olacaq”.

**Sücayət Mehti**

# Rusiya-Ukrayna münasibətlərinə yalnız Türkiyə kömək edə bilər

## Fransanın böyük oyunlara girişməsi heç nəyi həll etmir



**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov çıxışı zamanı bildirib ki, Rusiya Prezidenti Vladimir Putinin səfəri ilə bağlı Moskva ilə Ankara arasında razılaşma var. Onun sözlərinə görə, səfərin konkret tarixi hələ təsdiq edilməyib:**

”Həqiqətən də, perspektivdə belə bir səfər planlaşdırılır. Dəfələrlə dediyimiz kimi, Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan bu səfərlə bağlı razılığa gəliblər. Onlar razılaşıblar ki, səfər prezidentlərin qrafiki və epidemioloji şərait imkan verən vaxt reallaşsın. Hələlik dəqiq tarix məlum deyil. Lakin diplomatik kanallar vasitəsilə bu səfərin zamanı razılaşdırılacaq”.

Onu da qeyd edək ki, fevralın 7-də Fransa Prezidenti Emmanuel Makron Moskvaya səfər edib. Rusiya Prezidenti Vladimir Putinlə görüşüblər. Tərəflər arasında danışıqlar 5 saatdan çox çəkib. Müzakirələr zamanı bir çox məsələlərə toxunulub, dünyadakı ümumi siyasi böhran müzakirə olunub.

**Politoloq Samir Hümbətov ”Şərq”ə açıqlamasında bildirib ki, görüşün baş tutması gözlənilən idi:**

”Əsas məqsəd mövcud Ukrayna böhranının aradan qaldırılması ilə bağlı tədbirlərin görülməsidir. Bu da qısa zaman ərzində həll olacaq, asan məsələ deyil. Amma böhranı dəf etmək istiqamətində müəyyən addımlar atılacaq. Gərgin olan münasibətləri aktiv döyüş fazasına deyil də, danışıqlar masası arxasına gətirmək imkanı əldə edə bilərlər. Digər önəmli məsələlərdən biri Türkiyə prezidentinin Rusiya və Ukrayna dövlət başçıları ilə yaxşı münasibətlərinin olmasıdır. Burada həm şəxsi, həm dövlətlərarası münasibətlərdən söhbət gedir. Düşünürəm ki, belə münasibətlərin yaxşı olması tərəflər arasında uzlaşmanın əldə edilməsinə də təkan verə bilər”.

**S.Hümbətovun sözlərinə görə, hər üç tərəf silahlı mübarizənin olmasını istəmir:**

”Amma mövcud şərtlər müharibənin yaranmasını diktə edir. Tərəflər arasında bir konsensus əldə oluna bilər. Eyni zamanda Makronun səfəri onu göstərib ki, heç də hər şey qərbin istədiyi kimi gedə bilməz. Həmçinin qərb ölkələrinin heç biri Rusiyaya aqressiv münasibətdə deyil. Fransanın Rusiya prezidentinə, həmçinin Putinin ona göstərdiyi davranışlardan tərəflər arasında münasibətlərin digər ölkələr kimi olmadığını anlamaq olar. Rusiya rəsmi Parisə qarşı xüsusi simpatiyası olan dövlət deyil. Fransa da burada öz maraqlarını güdür. Onun enerji məsələlərində Rusiya ilə əməkdaşlığı mövcuddur. Rəsmi Kiyev məsələsində də Fransanın Ukraynaya dəstək verəcəyini güman etmək özü belə sadəlövhlük olar. Fransanın bu məsələdə əsas rolu mövqelər arasında uzlaşma yaratmaqdır. Bunun nə qədər uğurlu olması növbəti proseslərdə aydın olacaq. Amma indiki halda Makronun beş saatlıq görüşü istənilən effekti verməyib. Makron Moskvadan Kiyevə böyük ümidlərlə qayıda bilməyib”.

**Sücayət**

# Onu danışdırırlar

## Lukaşenkonun açıqlamaları blefdir, absurddur



### *“SSRİ-nin bərpası üçün heç bir zərurət yaranmayıb”*

**Belarus Prezidenti Aleksandr Lukaşenko Rusiyanın ”Rossiya” telekanalının aparıcısı, telejurnalist Vladimir Solovyova müsahibə verib. O bildirib ki, Rusiya Federasiyası və Belarusun İttifaq Dövlətinə sabiq sovet respublikalarının əksəriyyəti birləşə bilər:**

”Belarus artıq bu İttifaqdadır. Düşünürəm ki, Qazaxıstana da yaxşı dərs olub. Əgər siz 15 illik müddətdən danışırsınızsa, əminəm ki, səhv etməsək, Ukrayna da orada olacaq. Ermənistanın isə çıxış yolu yoxdur. Axı Ermənistan, ermənilər kimin nəyinə lazımdır?! Onlar bunu gördülər. Azərbaycan bu sıradan kənardadır. Çünki biz də çox səhvlər etmişik. Ayrı söhbətdir. Təbii, Azərbaycanı Türkiyə çox ciddi şəkildə dəstəkləyir. Türkmənistan, Özbəkistan və Tacikistan isə düşünürəm ki, ilk əvvəl iqtisadi zərurətlərə görə qatılacaqlar. Gələcək İttifaq dövlətində vahid valyuta olacaq. Bu, müstəqil dövlətlərin birliyindən xəbər verəcək. Yox, müstəqil yox, suveren. Müstəqillik nisbi anlayışdır. Axı bütün nefti və qazı Rusiyadan alıramsa, necə müstəqil ola bilərəm?!”.

**Politoloq Rusif Məmmədsoy ”Şərq”ə açıqlamasında bildirib ki, Lukaşenkonun bu tip açıqlamaları məyusedicidir:**

”Bildiyimiz kimi, təxminən bir neçə il öncəyə qədər Lukaşenko Vladimir Putinlə ən sərt şəkildə mübarizə aparan şəxslərdən biri olub. Amma son prezident seçkiləri hadisəsi zamanı Lukaşenkonun devrilmək planı həyata keçirilirdi. Bundan sonra Lukaşenko Rusiyanın vassallığını qəbul etdi, desək, yanılmarıq. Ona görə də Belarus prezidentinin açıqlamalarının pərdə arxasında birmənalı şəkildə Rusiya amili dayanır. Onu danışdıran qüvvələr var. Təbii ki, SSR-nin yenidən bərpa edilməsi üçün heç bir tarixi zərurət yoxdur. Həmçinin yaranması real belə deyil. Çünki artıq hər bir müstəqil dövlətin xarici siyasi kursu var. Hüquqi cəhətdən istənilən addımı ata bilərlər. Vladimir Putin özü də çıxışlarında dəfələrlə deyib ki, SSRİ-nin dağılması fəlakət idi. Yəni bu, fəlakət idisə, deməli, onun üçün hər hansı bir addımlar atmaq da mümkündür. Addımlar atılırdı əslində. Xatırlayırsınızsa, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının onlayn iclası zamanı Belarus Prezidenti Qazaxıstan olaylarından sonra hədəfi Özbəkistana çevirib. Bildirib ki, Özbəkistan Qazaxıstan hadisələrindən nəticə çıxarmalıdır. Yəni ki, KTMT ora da gələ bilər. Lakin şükürlər olsun ki, Özbəkistan prezidenti Şövkət Mirzəyev çox maraqlı, yerində cavab verib. Deyib ki, əgər daxili münasibətlərimizdə gərginlik yaranarsa, bunun üçün KTMT-ni dəvət etməyə ehtiyac duymuruq. Bu, çox vacib bir açıqlama idi. Rusiyanın arqressiyasının daha da artması, Özbəkistana ultimatum, Qazaxıstandakı proseslər, Qırğızıstan, Tacikistan sərhədindəki gərginliklərin fonunda Azərbaycan mütləq şəkildə Türkiyə ilə rəsmi, hüquqi bazası olan bir sənəd imzalamalı idi. Bu da Şuşa Bəyannaməsinin ratifikasiyası oldu. Bu çox tarixi əhəmiyyətli bir sənəddir. Onun çox geniş təbliğatının tərəfdarıyam. Rusiyanı qıcıqlandırsa da, artıq reallıqlar dəyişib. Türkiyə nəinki regionda, həm də Cənubi Qafqazda, Qarabağdadır. Qarabağda deyiriksə, birmənalı şəkildə Azərbaycan ərazisindədir. Həmin bəyannamənin maddələrinin birində qeyd olunur ki, iki qardaş ölkədən birinə qarşı hər hansı hərbi müdaxilə, təcavüz, milli və təhlükəsizliyinə, suverenliyinə təhdid olarsa, iki dövlət birləşib, ona qarşı mübarizə aparır”.

**Politoloqun qənaətincə, SSRİ-nin bərpası olmayacaq: ”Hətta Avrasiya İqtisadi İttifaqında da bizim artıq müşahidəçi statusunda olmağımız artıq qüvvədən düşüb.** Gündəmimizdə deyil. Bunun da səbəblərindən biri təbii ki, Qazaxıstandakı baş verən proseslərdir. Bütün bunları nəzərə aldıqda Lukaşenkonun açıqlaması blefdir, çox absurddur. SSRİ-nin bərpası üçün heç bir zərurət yaranmayıb. Artıq müstəqil dövlətlər var. Heç kim də SSRİ kimi bir imperiyanın qurulmasına razı olmayacaq”.

**Sücayət Mehti**

# Nazirin açıqlaması çox aktualdır

## Qulu Məhərrəmli: “Rusiya və İrandan gələn radio və televiziya siqnallarının qarşısı alınmalıdır”



**”İran kanallarının Azərbaycanın cənub zonasında bizim milli kanalların tezliyində kütləvi yayımlanması texniki məsələdən daha çox tənzimləmə məsələsidir. Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələrinə uyğun olaraq, davamlı şəkildə bu tezliklərin koordinasiya işi aparılır”.**

Bunu rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib. Onun sözlərinə görə, Azərbaycanın digər qonşuları ilə eyni məzmunda problemi yoxdur:

”Bilirsiniz, Rusiya, Gürcüstan və hətta Xəzər üzərindən bizimlə həmsərhəd olan Türkmənistan və Qazaxıstanla bizim hər hansı problemimiz yoxdur. Yeganə olaraq İran kanallarının kütləvi şəkildə bizim cənub zonamızda yayımlanması ilə rastlaşırıq. Bu baxımdan da artıq İranla və İranın müvafiq qurumları ilə işlərə başlamışıq. Hesab edirəm ki, yaxın aylarda biz bunun real effektini görəcəyik”.

Qeyd edək ki, 2019-cu ildə Azərbaycana səfər edən İranın keçmiş informasiya və kommunikasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Yaromi bildirmişdi ki, bu sahədə ortaq işçi qrupu yaradılıb və fəaliyyət həyata keçirilir.

”Biz dünya standartlarına uyğun olaraq 2,5 kilometrlik şüa nəzərdə tuturuq. Həmin məsafədə tezliklərə nəzarət etməliyik. İranla Azərbaycanın 370 kilometrlik sərhədi var, yalnız Ərdəbil vilayəti istiqamətində İran tərəfdə 180 kənd var. Düzdür, bu sahədə işlər görülüb və tezliklərə müdaxilələr azalıb, amma 2,5 kilometrlik məsafədə insanlar yaşayır və onlar yenə də müəyyən problemlərlə üzləşirlər. İşçi qrupu davamlı olaraq işləyir və vəziyyətin yaxşılaşdırılmasına çalışır. Tezlik belə deyil ki, ona bu nöqtədən o tərəfə keçmə deyilsin, bu, dalğadır. Amma ona nəzarət etmək lazımdır”, - Məhəmməd Cavad Azəri Yaromi qeyd etmişdi.

***"Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də bu işin öhdəsindən gəlməyə qadirdir. Biz arzulayırıq ki, bu proqram tezliklə həyata keçirilsin"***

**Tezliklərin ləğv edilməsi ilə bağlı ”Şərq”ə danışan teletənqidçi, BDU-nun professoru Qulu Məhərrəmli qeyd edib ki, nazirin bəyanatı diqqətə alınmalıdır:**

”Bu məsələ çox aktualdır. Çünki uzun müddətdir ki, İrandan Azərbaycana həm televiziya kanalları, həm də radio siqnalları keçir. Xüsusilə cənub zonasında bunlar əhalinin dinlədiyi, baxdığı informasiya resurslarından biridir. Amma bunun qarşısı alınmalıdır. İlk növbədə ona görə ki, istənilən dövlət özünün informasiya məkanının təhlükəsizliyini qorumalıdır. İnformasiya təhlükəsizliyi baxımından bizim məkanımıza əlavə və zərərli məlumatların daxil olmasının qarşısını almalıyıq. Məsələn, İranın özü Azərbaycandan gedən radio və televiziya siqnallarının qarşısını almaq üçün sərhəd boyu təxminən 20 məntəqədə dalğaları vuran xüsusi qurğular quraşdırıb. Bunların sayı və keyfiyyəti getdikcə artırılır. Ona görə Azərbaycan da qarşılıqlı addımlar atmalıdır. Hesab edirəm ki, hələ bu addım bir qədər gecikib. Çünki neçə müddətdir, bu barədə danışılır, amma konkret tədbirlər təəssüf ki, görülmür”.

**Professor ölkə boyunca yayımların keyfiyyətinin yaxşılaşdırılmasının vacib amil olduğunu vurğulayıb:**

”Cənub bölgəsində, eləcə də şimal bölgəsində, Rusiya və İrandan gələn radio və televiziya siqnallarının qarşısını almaqla yanaşı, o bölgələrdə Azərbaycanın radio tezliklərinin keyfiyyəti də yaxşılaşdırılmalıdır. Rəqəmsal və HD formata keçid nisbətən bunu təmin edə bilər. Çünki bölgələrdə faktiki olaraq, Bakı radiolarını dinləmək olmur. Yeganə yayıla bilən radio İctimai radionun verilişləridir. Qanuna görə, bütün ölkə ərazisində yayımlanması təmin olunmalıdır. Ona görə də biz əhalini keyfiyyətli informasiya ilə təmin etmək üçün, onları zərərli məlumatlardan qorumaq üçün mütləq öz informasiya məkanımızın təhlükəsizliyini qorumalıyıq. Zənn edirəm ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi də bu işin öhdəsindən gəlməyə qadirdir. Biz arzulayırıq ki, bu proqram tezliklə həyata keçirilsin”.

**Çimnaz Şahlar**

# UNESCO-ya müraciət çox önəmlidir

## Ermənilərin Azərbaycana məxsus tarixi abidələrə qəddar və vəhşi münasibəti yerindəcə araşdırılmalıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**




**Fevralın 4-də Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatdakı görüşünün nəticəsi olaraq razılıq ifadə olunub ki, UNESCO-nun Ermənistana və Azərbaycana missiyası həyata keçiriləcək. Bunu nəzərə alan Azərbaycanın nüfuzlu Qeyri-Hökumət Təşkilatlarının rəhbərləri UNESCO-nun Baş direktoru Odre Azuleyə müraciət ünvanlayıblar.**

QHT nümayəndələri Ermənistan ərazisindəki Azərbaycan xalqının irsinə qarşı bu ölkə tərəfindən həyata keçirilmiş mədəni soyqırım haqqında beynəlxalq təşkilata məlumat veriblər. Vurğulanıb ki, məhz Ermənistanın apardığı məqsədyönlü siyasət nəticəsində xalqımızın yüz illər tarixə malik Ermənistan ərazisindəki mədəni irsi tamamilə yox olma təhlükəsi ilə üzləşib. Ermənistan tərəfindən həyata keçirilmiş sözügedən mədəni soyqırımı azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti ilə müşayiət olunub. XX əsrin əvvəllərindən başlamış azərbaycanlıların əsrlər boyu öz doğma torpaqları olan bugünkü Ermənistan ərazisindən kütləvi deportasiyası nəticəsində Ermənistanda azərbaycanlı qalmayıb. Təkcə 1988-ci ildə həyata keçirilmiş sonuncu deportasiya nəticəsində 250 mindən çox azərbaycanlı öz doğma yurdlarından qovularaq qaçqına çevrildi. Beləliklə Ermənistan məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silib. Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirib. Bununla bərabər sözügedən ərazilərdəki qədim toponimlərin erməni adları ilə əvəzlənməsi də həyata keçirilib. Qeyd olunub ki, UNESCO-ya ünvanlanmış öncəki müraciətlərdə bir çox dəqiq faktlar da təqdim edilib. Vurğulanıb ki, Ermənistanda yerləşən Göy məscid, Qala Məscidi, Şah Abbas, Təpəbaşı, Zal Xan, Sərtib Xan, Hacı Novruzəli Bəy, Dəmirbulaq, Hacı Cəfər Bəy, Rəcəb Paşa, Məhəmməd Sərtib Xan, Hacı İnam Məscidi kimi 300-dən çox məscid 20-ci əsrin əvvəllərində qəsdən dağıdılıb, özününküləşdirilib və ya digər məqsədlərlə istifadə edilib. Yalnız Dəmirbulaq Məscidi 1988-ci ilə kimi öz təyinatı üzrə fəaliyyət göstərib, indi isə o, tamamilə dağıdılıb və yerində çoxmərtəbəli bina inşa edilib. Ermənistanda azərbaycanlılara məxsus Ağadədə, Aşağı Şorca, Güllübulaq, Saral qəbiristanlıqları kimi 500-dən çox qəbiristanlıq məhv edilib. Qədim Göyçə mahalında, doğulduğu kənddə qəbirüstü abidəsi ucaldılmış Azərbaycan xalqının böyük şairi Aşıq Ələsgərin də qəbri dağıdılıb. Ümumilikdə, Ermənistan öz ərazisində Azərbaycan xalqına məxsus minlərlə mədəni irs abidəsini bilərəkdən dağıdıb. Bu, Ermənistanda Azərbaycan xalqına qarşı mövcud olan dözümsüzlüyün bariz nümunəsi olmaqla yanaşı, eyni zamanda bütün insanlığa qarşı olan bir həqarətdir. Bütün bunlar onu göstərir ki, Ermənistan heç bir ümumbəşəri dəyərləri tanımır. Bütün bu qanunsuz əməllərin, onillərlə davam edən vandallıq əməllərinin cəzasız qalması isə dünya ictimaiyyətinə yanlış mesaj vermiş olur. Dünya ictimaiyyəti bu kimi addımların Ermənistanda dövlət siyasəti olmasını anlamalı və buna qarşı addımlar atmalıdır. Bu məqsədlə beynəlxalq hüquqda mövcud instrumentlər də istifadə edilməlidir. Belə ki, mədəni abidələrin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdirilməsi və özününkiləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bunlar müharibə cinayətləridir. BMT Təhlükəsizlik Şurasının 2017-ci ildə qəbul etdiyi tarixi 2347 saylı tarixi qətnaməsinin də müəyyən etdiyi kimi, mədəni irsin qəsdən dağıdılması həmçinin sülh və təhlükəsizlik məsələsidir. Məhz bütün bunları əsas gətirərək QHT rəhbərləri Azərbaycan xalqının çoxəsrli tarixi olan mədəni və tarixi irsinin hazırkı vəziyyətinin qiymətləndirilməsi üçün Ermənistana ekspert qrupunun göndərilməsini xahiş edib. Təəssüf ki, öz məkrli və qanunazidd əməllərini gizli saxlamaq üçün Ermənistan belə bir missiyanın həyata keçirilməsinə qarşı olub: ”Ümidvarıq ki, bu görüş zamanı öz üzərinə öhdəlik götürən Ermənistan UNESCO missiyasının reallaşmasına maneələr yaratmayacaq və bu missiyanın obyektiv hesabatı nəticəsində bütün dünya Azərbaycan xalqının çoxəsrlik irsinə qarşı törədilmiş əməllərdən xəbərdar olacaq. Ermənistan isə öz əməllərinə görə məsuliyyət daşıyacaq”. Müraciətə 30 QHT rəhbəri imza atıb.

**”Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi” İctimai Birliyinin sədri Səadət Bənənyarlı ”Şərq”ə açıqlamasında UNESCO-ya müraciətin çox önəmli olduğunu deyib. QHT rəhbəri bildirib ki, müraciətin əsasında sadəcə ermənilərin Qarabağda törətdikləri vəhşiliklər dayanmır:** ”Həmçinin, tarixi torpaqlarımızda, Göyçə mahalı, Zəngəzur, azərbaycanlıların əsrlər boyu yaşadığı İrəvanda ermənilərin xalqımıza məxsus mədəni irsi məhv etməsi ciddi araşdırılmalıdır. O baxımdan tələb etmişik ki, xüsusi ekspert qrupu bu işi araşdırmaq üçün Ermənistana getsin və tədqiqatlara başlasın. Sovet dövründə Azərbaycan xalqına, mədəni irsimizə qarşı həyata keçirilən fəaliyyət də ifşa olunmalıdır. Ermənilərin Azərbaycana məxsus tarixi abidələrə olan qəddar və vəhşi münasibəti yerindəcə araşdırılmalıdır. Ümid edirik ki, müraciətimiz nəzərə alınacaq və Ermənistanda obyektiv tədqiqatlara imkan yaradılacaq. Azərbaycan türklərinə aid olan mədəni irsin dağıdılması, məhv edilməsi faktları mütləq sənədlərdə öz əksini tapmalıdır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Tələblər daha ədalətli olmalıdır

## Hər yüksək bal toplayan müəllim işləyə bilməz



***“Burada psixoloji testlər, pedaqoji bacarıqlar, səriştəlilik və digər məsələlərin yoxlanması da vacibdir”***

**Təhsil Nazirliyi bakalavr ixtisası fərqli, magistr təhsili isə müəllimlik olanların müəllimlərin işə qəbulu müsabiqəsinin (MİQ) imtahanlarında iştirak etmələrinə icazə verilib-verilməməsi məsələsinə aydınlıq gətirib.**

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin elektron sənəd qəbulu mərhələsində baza təhsili (bakalavr) müəllimlik ixtisası olan namizədlərin ərizəsi qəbul olunur:

”Həmin şəxslər müsabiqənin test imtahanı mərhələsində iştirak hüququ qazanırlar”.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan təhsil üzrə ekspert Nadir İsrafilovun sözlərinə görə, Azərbaycan bolonya sisteminə qoşulduqdan sonra təhsilini dünya standartlarına uyğun qurmağa çalışır.**

”Bakalavr mərhələsində sırf peşə ilə bağlı, magistraturada isə elmi sahə üzrə ali təhsil verilir. İlkin pillə üzrə təhsilini başa vuran şəxs həmin peşə üzrə ixtisaslaşır. İkinci mərhələdə də öz peşəsi üzrə mütəxəssisə çevrilir. Ancaq kimsə bakalavriat mərhələsini qeyri-ixtisas üzrə bitiribsə, onun müəllim işləməsi düzgün hesab oluna bilməz. Düzdü, bu peşə seçimində müstəqillikdir. Eyni zamanda kimsə bir neçə ixtisasa yiyələnə bilər və bunun üçün yaş limiti də yoxdur. Amma istənilən halda, başqa ixtisas üzrə oxuyub müəllim olmaq üçün sənəd vermək məqbul sayılmır. Bu baxımdan həmin qərar yerindədir”.

**Ekspert eyni zamanda bildirib ki, müəllim işləyəcək şəxs sadəcə bilik üzərindən qiymətləndirilməməlidir:**

”İndi təhsilin inkişafı strategiyasında əsas istiqamətlərdən biri də müəllimin nüfuzunu yüksəltmək məsələsidir. Ona görə də müəllim seçimində tələblər daha da kəskinləşdirilməlidir. Ora hər təsadüfi adam düşməməlidir. Gələcəkdə müəllim işləyəcək şəxs sadəcə topladığı bala görə seçilməməlidir. Burada psixoloji testlər, pedaqoji bacarıqlar, səriştəlilik  və digər məsələlərin yoxlanması da vacibdir. Hər keçid balını toplayana sən artıq müəllim oldun demək düzgün deyil. Yüksək bal toplayanların içində müəllimlik peşəsinə yaraşmayan hərəkətlərə yol verənlər də olur. Hazırda MİQ imtahanlarında mərhələlərin təkmilləşdirilməsinə ehtiyac var”.

**Sənan İsmayıl**

# Bakıda faciə

## 15 yaşlı qız uşaq dünyaya gətirdi, hər ikisi öldü



**Bakıda yeniyetmə qız uşaq dünyaya gətirib qısa müddətdə özü və körpəsi ölüb. Faciəli hadisə 3 saylı Şəhər Klinik Xəstəxanasında qeydə alınıb. Doğuş sancıları ilə xəstəxanaya gətirilən 15 yaşlı G.B. (şərti qeyd)  və dünyaya gətirdiyi uşaq ölüb.**

Araşdırmalar nəticəsində G.B.-nin əvvəllər 28 yaşlı Mayıl Hadıyevlə qeyri-rəsmi nikah münasibətlərində olması müəyyən edilib. Faktla bağlı cinayət işi başlanılıb, M.Hadıyev saxlanılıb.

**Faciəli hadisə ilə bağlı ”Şərq” danışan Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə qeyd etdi ki, 15 yaşlı yeniyetmənin qeyri-rəsmi nikahda olduğu şəxsin həbs edilməsi ümumi problemin həllinə kömək etməyəcək:**

- 15 yaşlı uşaq faciəli şəkildə dünyasını dəyişib. Onunla qeyri-rəsmi nikahda olan adamın həbsiylə nəyə nail olunacaq? Bu, nəyi dəyişəcək. Anlayıram, ortada cinayət əməli var və cinayətkar cəzasını almalıdır.  Bəs digərləri - valideynlər, qohumlar, qonşular, bu məsələdən xəbərdar olub  susanlar necə olsun?!. Ehtimal edirəm, valideyn deyəcək ki, ”neyləyim, qızım qoşulub qaçmasın deyə evləndirdik, özü istədi...”. Yalan deyəcəklər.  15 yaşlı yeniyetmə valideynlərin himayəsindədir. Valideyn bu evliliyin, bu qeyri-rəsmi münasibətdə olmanın qarşısını alsaydı, razı olmasaydı, indi o qız yaşayacaqdı. Başına bu cür müsibət gəlməyəcəkdi. Bəs qohumlar, məsələdən xəbərdar olan digərləri buna necə göz yumublar, göz görə-görə 15 yaşlı uşağı faciənin içinə atıblar.

***Kəmalə Ağazadə: "Aidiyyətli qurumların fəaliyyətsizliyi, mexanizmlərin işləməməsi belə faciələrə yol açır"***

**K.Ağazadə erkən nikahların qarşısının alınmasında aidiyyətli qurumların da vəzifələrinin öhdəsindən gəlmədiyini bildirdi:**

- Aidiyyətli qurumların fəaliyyətsizliyi, mexanizmlərin işləməməsi belə faciələrə yol açır. İcra hakimiyyətləri yanında xüsusi şöbə, komissiyalar fəaliyyət göstərir. Bəli, bu komissiyaların əməkdaşlarının sayı çox azdır, şöbələr normal fəaliyyət göstərmir. Boşluqlar o qədər çoxdur ki, ciddi fəaliyyət göstərilməsinə mane olur. Təsəvvür etmək belə dəhşətdir ki, vəfat etmiş qızın 10 ay əvvəl toyu olub. Ailə Binə qəsəbəsində yaşayır. Bu toy mərasiminin keçirilməsindən niyə heç bir orqan xəbər tutmayıb? Ola bilsin, ailə hansısa bölgədən Bakıya köçüb. Lakin qeydiyyata alınmayıblar. Bu da başqa bir problemdir. Miqrasiya prosesi gedir, əhalinin yerdəyişməsi baş verir, lakin onların qeydiyyatı aparılmır deyə, həssas qruplara məxsus şəxsləri ayırd etmək də çətinləşir.

**Məlahət Rzayeva**

# Bölgələrdə ixtisaslaşmış həkimlər çatışmır, xaricə axın güclənib



**Zəlimxan Məmmədli:** ”Tibb işçisi poliklinikada 300 manat əmək haqqı alırsa, yeri gələndə də onu gözümçıxdıya salırlarsa, o əlbəttə ki, buranı tərk edəcək”

**Sərdar Cəlaloğlu:** ”Vətəndaşlıq hissləri itib, kimə həyat harda yaxşıdırsa, hamı ora qaçır”

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Strateji təhlil departamentinin rəhbəri Araz Nəsirov  bildirib ki, Azərbaycan bölgələrində ixtisaslaşmış həkim çatışmazlığı hələ də  var.**

Onun sözlərinə görə, ölkədə əsas multidisiplinar xəstəxanalar Bakıda yerləşdiyindən insanlar tibbi xidmət almaq üçün regionlardan Bakıya gəlirlər: ”Məqsədimiz odur ki, bölgələrdə də multidisiplinar xəstəxanalar yaradaq və regionlardan insanların Bakıya gəlməsinə ehtiyac qalmasın”.

Xatırladaq ki, son illər işləmək üçün xarici ölkələrə üz tutan azərbaycanlılar arasında həkimlər də çoxluq təşkil edir. Hələ Alman Tibb Assosiasiyasının təkcə 2017-ci illə bağlı hesabatında bildirilib ki, Almaniyada işlə təmin edilən xarici həkimlərin sayı 9,7 faiz artıb. Onların da arasında 108 nəfər azərbaycanlı həkim olub. Bəllidir ki, ölkə həkimlərinin xaricə gedişinin qarşısını almaq üçün tədbirlər görülsə, müəyyən mənada bölgələrdəki ixtisaslaşmış həkim çatışmazlığı problemini də aradan qaldırmaq  olar.

**Həkim, ictimai-siyasi xadim Zəlimxan Məmmədli mövcud problemlə bağlı ”Şərq”ə danışıb. O bildirib ki, həkim yetişdirmək asan məsələ deyil:**

”Bizim ölkədən xaricə gedən həkimlər orada kifayət qədər nüfuz sahibi olurlar. Deməli, burada onların intellektual imkanlarından yaxşı istifadə olunmur. Bu da səhiyyənin yanlış kadr siyasəti ilə bağlıdır. Əgər həkim poliklinikadan 300 manat əmək haqqı alırsa, yeri gələndə də onu gözümçıxdıya salırlarsa, o əlbəttə ki, buranı tərk edəcək. Onlar da sosial rifah axtarırlar. Həkimin əməyinə qiymət vermək lazımdır”.

Z.Məmmədli təəssüflə qeyd edib  ki, Azərbaycanda bu və ya digər sahədə olan ciddi boşluqlara görə kadrların əks axını baş verir:

”Biz dünyadan daha təcrübəli kadrları gətirib, onların təcrübəsindən istifadə etməklə yanaşı öz əlimizdəkinin də qiymətini bilməliyik. Perspektivli həkimlərimiz ölkəmizdə perspektiv görmədiyi üçün xaricə üz tuturlar. Bu məsələ həll olunsa, onlar ölkədə qalıb vətənin çiçəklənməsində iştirak edər”.

**Azərbaycan Demokratik Partiyasının (ADP) sədri, həkim Sərdar Cəlaloğlu  isə fərqli düşüncədədir. O, əvvəla deyib ki, Azərbaycanda  həkimlər çox yaxşı yaşayırlar. Xüsusən ixtisaslaşmış həkimlər qədər varlı yaşayan kimsə yoxdur.**

**Onun sözlərinə görə, hər şeydən öncə insanlarda ictimai şüur olmalıdır:**

”Öz millətinə, xalqına xidmət etmək üçün şəxs hər cür çətinliklərə dözməlidir. Amma çox təəssüflər olsun ki, artıq merkantilizm elə bir prinsipə çevrilib ki, insanlar öz vətəndaşlıq hisslərini qoruyub saxlaya bilməyiblər. Ona görə də harda həyat yaxşıdırsa, hamı ora qaçır”.

**Günəş Mərd**

# Məktəblərdə təhlükəsizlik məsələləri unudulub

## Bu dəfə 1-ci sinif şagirdi elektrik cərəyanının qurbanı oldu



**Cəlilabad rayon prokurorluğundan verilən məlumata görə, fevralın 8-i saat 12 radələrində Cəlilabad rayonu, Qarazəncir kənd sakini, Ocaqlı kənd 1 nömrəli kənd tam orta məktəbin 1-ci sinif şagirdi, 2015-ci il təvəllüdlü Hüseyn Zeynalovun təhsil aldığı məktəbin həyətində elektrik cərəyanı vurması nəticəsində ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Aparılmış araşdırmalarla müəyyən edilib ki, Hüseyn Zeynalov məktəbin həyətində oynayarkən dirəkdən aşağıya doğru sallanan vəziyyətdə olan 10 kv-luq elektrik məftilə toxunması səbəbindən elektrik cərəyanı vurması nəticəsində ölüb.

Faktla bağlı Cəlilabad rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

"Bəlkə də elektrik xətləri günlərdir, aylardır həmin vəziyyətdə qalıb, ancaq heç kəsin diqqətini cəlb etməyib. Təbii ki, üstü açıq naqil varsa və uzun müddət eyni vəziyyətdə qalırsa, hər hansı şagird mütləq ona nə vaxtsa toxunacaq".

**Bu sözləri məsələ ilə bağlı "Şərq"ə açıqlama verən təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev**

### *Elmar Nurəliyev: "Bəlkə də o xətlər günlərdir, aylardır həmin vəziyyətdə qalıb, ancaq heç kəsin diqqətini cəlb etməyib"*

**deyib. O həmçinin qeyd edib ki, məktəblərdə təhlükəsizlik məsələsi ciddi yanaşılmalı məsələdir.**

"Nəzərə almaq lazımdır ki, buradakı şagirdlərin çoxu azyaşlıdır və onlar hər zaman təhlükələri görə, məntiqli qərar verə bilmirlər. Ümumiyyətlə, məktəblərdə uşaqların həyat və sağlamlığına təhlükə yaradacaq heç nə olmamalıdır. Təhlükəli vəziyyət yarandıqda aşkarlanaraq dərhal qabaqlayıcı tədbirlər görülməlidir. Əgər məktəbin hansısa hissəsində sökülmə, uçma ehtimalı, elektrik xətlərində qısaqapanmalar varsa və ya qazanxanalar tam təhlükəsiz vəziyyətdə deyilsə, bunlar gözardı edilməməlidir. Eyni zamanda belə situasiyalar baş verdikdə məktəb rəhbərliyi təxirəsalınmaz tədbirlər görməlidir".

**Ekspertin sözlərinə görə, bu kimi problemlər əsasən rayon məktəblərində yaşanır:**

"Orada bu təhlükəsizlik məsələlərinə kimin nəzarət etdiyi məlum deyil. Yaxşı olardı ki, hər gün dərs bitdikdən sonra məktəb ümumi, hərtərəfli yoxlanışdan keçirilsin. Əgər heç bir problem və ya risk faktoru yoxdursa, şagirdlər növbəti gün məktəbə buraxılsın.

Bununla yanaşı şagirdlərin istifadəsinə verilən emalatxanalar, idman zalları və informatika otaqlarında olan qurğuların, alətlərin sazlığından əmin olunmalıdır.

Bu məsələnin həlli üçün kompleks tədbirlər planı işlənib hazırlanmalı və və bütün məktəblərdə tətbiq edilməlidir.

Nəzərə almaq lazımdır ki, şagirdlərin də təhlükəsizlik qaydaları ilə bağlı ilkin bilikləri olması vacibdir".

**Sənan İsmayıl**



# "Belə şeylər paylaşma, bizimkilər də qoşulacaq"

Nadir Qafarzadə Rihannanın dəbinə lağ etdi

**Dünya ulduzu Rihannanın geyimi müzakirələrə səbəb olub.**

"Şərq" xəbər verir ki, əksəriyyət sənətçinin hamilə qadınlara uyğun geyinmədiyini yazaraq tənqid edir. Müğənni Nadir Qafarzadə "ShowNews"un "İnstagram"da paylaşdığı xəbərə rəy bildirib: "Belə şeyləri paylaşma, korun əlinə çıraq vermə. Sabahdan bizimkilər də bu trendə qoşulacaqlar. Qonşudan qalma dala".

**Aygün**

# Vəkil Şəfiqə Nağıyeva görünüşünü dəyişdirdi




**Tanınmış vəkil Şəfiqə Nağıyevanın görünüşünü dəyişməsi müzakirələrə səbəb olub.**

"Şərq" xəbər verir ki, kamera qarşısına keçən vəkil gözəlliyinə görə kosmetoloquna təşəkkür edib.

O, kosmetoloq Xariqə Quliyevanın əllərini "qızıl" adlandırıb.

**Aygün**

# Baloğlan Əşrəfovu xəstəxanaya getməyə məcbur edə bilməyiblər

Dedi ki, yox, dünyamı dəyişsəm də, el adəti ilə yuyulub, kəfənlənmək istəyirəm



**"Atam 70 yaşını görməyəcəyini söyləyirdi. Yarızarafat, yarıciddi qəbul etmək istəmirdik. Amma müddət keçdikcə sözlərinin çoxunun reallığa çevrildiyini gördük".**

"Şərq"in məlumatına görə, bu sözləri "O üz" proqramının qonağı olan mərhum Əməkdar artist Baloğlan Əşrəfovun oğlu Peyman Əşrəfov deyib.

Atasının ölümündən danışan P.Əşrəfov onun xəstəxanaya getməməsinin səbəbini açıqlayıb:

"Koronavirusa yoluxanda xəstəxanaya getməsi üçün 3-4 dəfə məcbur etmək istədik. Dedi ki, yox, dünyamı dəyişsəm də, el adəti ilə yuyulub, kəfənlənmək istəyirəm".

*Qeyd edək ki, Baloğlan Əşrəfov ötən ilin aprel ayında evdə müalicə zamanı COVID-19-dan dünyasını dəyişib.*

**Aygün Tahir**

# Nazpəri Dostəliyeva hələ oğlunun ilini gözləyir

"İnşallah, martın 21-dən sonra efirdə, "İnstagram"da olacam"



**"Hər kəs bilir ki, mart ayının 22-nə qədər, oğlumun ili çıxana kimi bütün fəaliyyətimi dayandırmışam".**

Bu sözləri "Şərq"ə açıqlamasında Xalq artisti Nazpəri Dostəliyeva deyib. Xalq artisti televiziyada görünməməyinin səbəbini izah edib: "İnşallah, martın 21-dən sonra efir, "İnstagram" və s. kimi sadalanan yerlərdə aktivliyimə davam edəcəm. Bu mənim sənətimdir, sənətimin arxasınca gedəcəm. Ayaqda olmağa çalışacam".

*Qeyd edək ki, N.Dostəliyevanın oğlu Əli Quliyev ötən il, 41 yaşında ürək tutmasından dünyasını dəyişib.*

**Aygün Tahir**

# Yalnız sosial ipoteka insanlara sərf edən səviyyədədir



## Amma onun da həcmi və sayı yetərli deyil

**Bu günə qədər İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 37 001 borcalana 2 milyard 012,647 milyon manat kredit verib. Bu barədə İKZF-nin açıqlamasında bildirilir. Bundan başqa, qurumdan bəyan edilib ki, indiyə qədər 278,743 milyon manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 1 344 mənzil isə kirayəyə vermək yolu ilə realizə edilib.**

Amma müşahidələrə əsasən deyə bilərik ki, ölkədə əhalinin bütün qisimləri bu fondun imkanlarından açıq şəkildə yararlana bilmir. İKZF-nin təklif etdiyi seçimlərin məhdud olması cəmiyyətin aşağı təbəqələri üçün problem yaradır.

**Bu sahədəki durumu dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə bildirib ki, ipotekanın verilməsində vəziyyət ürəkaçan deyil:**

"İpoteka kreditlərinin həcmi çox azdır. Bunun səbəbi faizlərin hələ də yüksək olmasıdır. Yalnız sosial ipoteka insanlara sərf edən səviyyədədir. Amma onun da həcmi və sayı yetərli deyil.

Digər ipoteka növləri isə daha bahadır. Faiz nisbətləri 8-14 arasında dəyişir. Bu isə çox zaman vətəndaşlara sərf edən faiz dərəcəsi olmur.

Bir də təklif çox deyil, ipoteka ilə satılan mənzillərin sayı aşağıdır. Mənə elə gəlir ki, bu iki problem həllini tapsa, ipoteka ilə daha ciddi irəliləyişlər əldə etmək olar və mənzilə çıxış imkanları genişlənə bilər".

**Çimnaz Şahlar**

# İnstaqramını da bağladı

Nigar Şabanova bir neçə gün əvvəl xəstəxanaya yerləşdirilib



**Xəbər verdiyimiz kimi, Əməkdar artist Nigar Şabanova bir neçə gün əvvəl xəstəxanaya yerləşdirilib.**

Səhhətində problem olan müğənni instaqram hesabını da bağlayıb.

Hazırda xəstəxanada olan və müalicəsi davam edən Nigar Axşam.az-a açıqlama verib. O bildirib ki, həkim stesdən uzaq olmağı tapşırıb:

"Həkim stressdən, telefondan, çəkilişlərdən bir müddət uzaq olmağı tapşırıb. Görüm bacara biləcəm... İndi özümü yaxşı hiss edirəm". Nigar əlavə edib ki, iki gündən sonra evə buraxılacaq.

# Pərvin Abıyeva fit bədənini nümayiş etdirdi



**Aktrisa Pərvin Abıyeva yeni paylaşımı ilə gündəmə gəlib.**

O, instaqram hesabında idman zalında lentə alınan görüntülərini yayımlayıb.

Hər zaman fit bədən quruluşu ilə diqqət çəkən Pərvin bu dəfə də müzakirələrə səbəb olub. Onun incə və qüsursuz bədən quruluşu izləyiciləri tərəfindən maraqla qarşılanıb.

*Qeyd edək ki, aktrisa sonuncu dəfə Türkiyədə yayımlanan "Survivor" yarışması haqqında verdiyi qalmaqallı açıqlaması ilə gündəmə gəlmişdi.*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

- **-MÜHASİBAT** (2 AY)
- **-Mobil telefonların təmiri** (3 ay)
- **-KOMPYUTER** (1-3 AY)
- **-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
- **-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
- **-Dizayn** (3-6ay)
- **-Masaj** (3 ay)
- **-Biçmə - Tikiş** (3 ay)
- **-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# "Sənin çəkin qədər televiziyalara pul tökmüşəm"

## Xatirə aparıcının iddialarını qəbul etmir

**Aparıcı Kazım Sübhan sosial şəbəkədə video yayımlayıb. O bildirib ki, müğənni Xatirə İslam, Natəvan Həbibidən sonra reper Elşad Xose kanallara qonorar təklifi irəli sürən sayca üçüncü ifaçıdır.**



"Hər kəsin fikrinə və qərarına böyük hörmətim var. Xarici kanallardan eşidib, icra etmək istəyirlər, amma bu belə yox, rəsmi şəkildə olur. Bu günə qədər elələri oldu ki, əldə etdiyi uğurları televiziya sayəsində qazandı. İndi elə bir məqama çatmısınız ki, kanallardan qonorar istəyirsiniz. Axı hər şey zamanında qarşılıqlı olub. İndi belə bir iddia irəli sürmək düzgün deyil. Sıfırdan sənətə gələndə deməli idiniz ki, ancaq qonorarla efirə çıxacam", - deyə Kazım Sübhan qeyd edib.

**"Şərq"in məlumatına görə, müğənni X.İslam "İnstagram" səhifəsində iddiaları cavablandırıb:**

"Yenə qatmısan aləmi, ay Kazım, ay bala, nə sözlərdir danışmısan? Deyirsən vaxtında televiziya vasitəsilə tanınan sənətçilər bu gün efirə havayı gəlməlidir. Ay Kazım, sən də televiziya sayəsində tanınmısan, özü də bizdən fərqli olaraq pul xərcləmədən. Sən bu gün televiziyadan maaş almırsan? Çəkini dəqiq bilmirəm, təxminən 55 kiloqramdan ağır olmazsan. Düz sənin çəkin qədər televiziyalara pul vermişəm. Səbəb isə bu gün efirə gedəndə qonorar alım. Vaxt olub anamın üzüyünü satıb bir verilişə vermişəm, eləcə də hamı. Xalqı aldatmayın. Kim səhnəyə təzə çıxırsa, həmin yolu keçməli, pul ödəməlidir. Kiminsə qara qaşına, gözünə görə televiziya o adamı tanıtmır. Dədəmə borcu var? İstedadım olmasaydı, tanıtmazdılar. Ağlın indiyə getməsin, biz çıxmırıq, kim gəldi çıxardırsız. O zamanlar sanbal məsələləri başqa cür idi".

**Müğənni sənət adamlarının efirə qonorar əsasında çıxmasının rəsmiləşəcəyini vurğulayıb:**

"Bu işin rəsmi olmağına gəlsək, əzizim, rəsmiləşəcək. Bunu sənə mən deyirəm. Bir neçə nəfər də belə addım atsın, gör rəsmiləşir, ya yox. Şəxsən mən bir neçə nəfərə söz vermişdim ki, kefim yaxşı olanda efirə gələcəm. Öz işimdir, kimdən qonorar istəyərəm, istəmərəm özüm bilərəm. Əslində qalanda isə yolu budur. Öz gözünün qabağında televiziyaya nə pullar xərclənib. Bilə-bilə deyirsən qarşılıqlı reytinq qazanmısız. Müğənni pulunu ödəyib efirə çıxırdı, həmin sənətçiyə ağzına gələni deyib, ağladıb, reytinqi televiziya qazanırdı. İndi ola bilər? Pul ödəyən adama güldən artıq söz demək mümkündür? Bizim vaxtımızda həm pul verirdik, həm də anamızın təzyiqi verilişdən sonra yüksəlirdi. Nə qədər müğənnilər arasında birlik olmayacaq, durum davam edəcək. Şir həmişə şirdir, mənim qardaşım".

**Aygün Tahir**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 415




# Körpəsi yuxudan oyandı

## Aparıcı məcbur verilişə onunla qatıldı

**Hava proqnozunu təqdim etmək üçün verilişə körpə qızı ilə çıxan aparıcı sosial şəbəkələrdə məşhurlaşıb.**

Oxu.az xəbər verir ki, bildirilir ki, WDJT-TV meteoroloqu Rebekka Şuld verilişə uşaqla çıxmağı planlaşdırmayıb. Həmin vaxt o, koronavirus məhdudiyyətlərinə görə, evdə olub, proqrama da evdən qatılıb.

"Növbəti hava hesabatına qədər bir neçə dəqiqə qalmış körpəm oyandı", - deyə Şuld olanları danışıb. Bu səbəbdən o, uşaqla birlikdə verilişi aparmaq qərarına gəlib.

Sinoptik 13 həftəlik qızı Fionanın yuxusunu tam aldığı üçün özünü yaxşı aparacağına əmin olduğunu vurğulayıb.

"Düşündüm ki, o, mənə bugünkü olduqca xoşagəlməz olacaq hava haqqında danışmağa kömək edəcək", - deyə sinoptik bildirib. Kadrlar sosial şəbəkədə böyük maraqla qarşılanıb.

# Türkiyədə uçan maşınlar hazırlanır



**Türkiyədə "Bayraktar" şirkəti uçan maşınların hazırlanması üzərində iş aparır.**

APA-nın məlumatına görə, bunu "TEKNOFEST" Müşahidə Şurasının sədri və Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vakfı) rəhbəri Səlcuq Bayraktar deyib.

O bildirib ki, uçan maşınların tam hazırlanması 10 il çəkəcək: "Bunların prototiplərinin hazırlanması prosesinə artıq start verilib, ilk uçuşu 2020-ci ildə həyata keçirmişik. Bu maşınlar ilk əvvəllər çox az istifadə edilsə də, sonradan həyatımıza daxil olacaqlar. Türkiyədə müvafiq laboratoriyalarda şagirdlər, tələbələr təcrübə keçirlər. Həmin gənclər uçan maşınların da hazırlanması üçün sınaqlarda iştirak edirlər".

# D vitamini vacibdir

## Alimlər koronavirusdan ölüm riskini azaltmağın yolunu tapıblar



**Bar-İlan Universiteti və Qaliley Tibb Mərkəzindən olan alimlər orqanizmdə D vitamininin çatışmazlığının koronavirusun ağır keçirilməsinə və ondan ölüm hallarının nisbətinin artmasına səbəb olduğunu müəyyən ediblər.**

**Oxu.az xəbər verir ki, alimlərin sözlərinə görə, D vitamini peyvəndi əvəzləməsə də, infeksiyanın ağır fəsadlarından qorunmağa kömək edir. İsrailli mütəxəssislər qeyd ediblər ki, araşdırmalar zamanı "omikron"a qədərki nümunələrə baxılsa da, sözügedən təsir həmin ştamma da aid oluna bilər.**

# Məsafədən işləmək üçün "kompüterli" geyimlər hazırlanıb



**Britaniyanın Kral İncəsənət Kollecinin tələbəsi Vey Lun Honq qeyri-adi geyimlərinin kolleksiyasını təqdim edib. Kolleksiyanın əsas ideyası uzaqdan işləmək imkanıdır.**

**Oxu.az xəbər verir ki, düzdür, Honqun yaratdığı qarderob əşyalarının heç biri rahat deyil. Onların hamısı distant işin tətbiq olunduğu şəraitdə daha məhsuldar işləmək üçün nəzərdə tutulub.**

**Ümumilikdə tələbə üç növ geyim təqdim edib. Onlardan ən maraqlısı isə birbaşa içərisinə tam miqyaslı kompüter quraşdırılmış kombinezondur. Əsas kompüter arxa tərəfdə, iki monitor isə öndə yerləşir. Split klaviatura və siçan ilə siz istənilən yerdən işləyə bilərsiniz. Qulaqlıqlar isə birbaşa kapüşona "tikilib".**

# Türkiyənin "Yaxşılıq" qatarı Əfqanıstana çatıb




**Türkiyədən humanitar yardım aparan "Yaxşılıq" qatarı Əfqanıstana çatıb.**

**"Qafqazinfo" xəbər verir ki, bu barədə Türkiyə Daxili İşlər Nazirliyinin Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyi (AFAD) məlumat yayıb.**

**Bildirilib ki, Əfqanıstandakı sərt qış şərtləri səbəbindən həyat şəraitinin pisləşdiyi və 12,9 milyon uşağın təcili yardıma ehtiyacı olduğu Əfqanıstana 747,7 ton humanitar yardım aparan qatar Herat şəhərinə çatıb.**




# Beləsi heç olmamışdı

## Qarşısında dayanan adamın boynundakı xalı görüb, xərçəng xəbərdarlığı etdi

**Hadisə ABŞ-da baş verib. Tibb təhsili alan Nadia Popoviç azarkeşlik etdiyi "Seattle Kraken" hokkey komandasının oyununu izləməyə getdiyi idman sarayında bir nəfəri real ölüm təhlükəsindən xilas edib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, oyunu izlərkən qarşıda dayanmış təhlükəsizlik əməkdaşı Brian Hamiltonun boynundakı xal tələbə qızın diqqətini cəlb edib.**

Tələbə bunun təhlükəli xəstəliyin əlaməti ola biləcəyindən ehtiyatlanıb. Tribuna ilə oyun meydançası arasında şüşə baryer olduğundan əməkdaşa bu barədə necə xəbər verəcəyini düşünüb, nəhayət öz mobil telefonuna "boynunuzdakı xal xərçəng əlaməti ola bilər. Lütfən, həkimə müraciət edin" mesajını yazıb və telefonun ekranını şüşəyə doğru çevirib. Xoşbəxtlikdən Hamilton bunu fərq edib. Mesajı oxuyub. Və buna ciddi yanaşmalı olduğuna qərar verərək həkimə gedib. Həkim Hamiltona "zamanında gəlmisiniz. Bu xal "melanoma" adlanan dəri xərçənginin əlamətidir. Yaxşı ki, tez müraciət etdiniz. Geciksəydiniz, nəticə ağır olardı" deyib. Hamilton əməliyyat olunub, müalicə alıb. Həyatı üçün real təhlükəni arxada qoyan Hamilton onu bu bəladan xilas edən xanıma təşəkkürünü çatdırmaq istəyib, lakin onu necə tapacağını bilməyib. Sonra sosial mediada hadisə barədə yazıb. Bununla tələbə qızı tapa bilib. Tələbəni yenə hokkey oyunu izləməyə dəvət edərək onunla söhbət etmək istədiyini deyib. Nadia Popoviçlə görüşən B.Hamilton ona təşəkkür əlaməti olaraq təhsil xərclərini qarşılamağı üzərinə götürüb.

### *Sağlığına qovuşan nəzarətçi əvəzində tibb tələbəsinin təhsil haqqını qarşıladı*

**Tibb mütəxəssisi, dermatoloq Melda Özekinci dəridə əmələ gələn xallara etinasız yanaşmamağı tövsiyə edir. Xüsusilə xallar 35 yaşdan sonra görünməyə başlayırsa, buna ciddi yanaşılmalı və həkimə müraicət edilməlidir.** "Hər kəsdə rastlanan qəhvəyi rəngli ləkələr dərinin üst təbəqəsində epiderm hüceyrələrinin çoxalması nəticəsində meydana gəlir. Burada genetika, immunitetin zəifləməsi, günəş şüalarına çox məruz qalmaq, dərinin ağlığı və qadın cinsinə mənsubluq amilləri rol oynayır. Xalların olması, əslində normaldır. Lakin bəzi xallar təhlükəli ola bilər. Xüsusən 35 yaşdan sonra dəridə əmələ gələn xallara, ləkələrə etinasız yanaşmaq olmaz. Çünki xallar adətən insanda 30 yaşına qədər çoxalır. 30 yaşdan sonra isə azalmalıdır. Əgər xallar, ləkələr böyüyürsə, kənarları səliqəsizdirsə, rəng dəyişikliyi baş verirsə xərçəng təhlükəsi daşıya bilər. Bu halda mütləq həkimə müraciət edilməlidir. **M.Özekinci xalların qoparılmamasını da xüsusi vurğularıb:** "Bu, infeksiyaya yol açar və vəziyyəti daha da ağırlaşdırar". Kimsə xallardan xilas olmaq istəyirsə, estetik cərrahlara müraciət etməlidir. Boyun və beldəki xallar geyimlər səbəbindən daha çox sürtündüyü üçün təhlükə daha da artır. Xallar götürüldükdə isə mütləq analiz olunmalıdır.

**Məlahət Rzayeva**



# 3 dəfə artacaq

## 120 milyon insan kor qalacaq

**2050-ci ilə kimi dünyada tam kor insanların sayı 3 dəfə artaraq 120 milyona çatacaq.**

Bu barədə Global Health məlumat yayıb. Saytın yazdığına görə, hər 5 ildə görmə qabiliyyəti korluq dərəcəsinə kimi zəifləyənlərin sayı 2 dəfə artır. Gələcəyin ən böyük problemlərindən biri sayılan görmə qabiliyyətinin itirilməsi ilk olaraq planetin ən kasıb, üçüncü dərəcəli ölkələrində yayılacaq.

118 ölkədə aparılan statistik araşdırmalar göstərir ki, Cənubi Asiya və Afrikada daha çox insan bu xəstəlikdən əziyyət çəkir. Hazırda 250 milyon insan pis və həddən artıq pis görmə ilə yaşayır. 2050-ci ildə bu rəqəm 550 milyon olacaq. (milli.az)

Araşdırmalar göstəriri ki, görmə problemi ilə doğulan uşaqların da sayı kəskin artmaqdadır.

Alimlər deyir ki, hər kəsin xərçəngin müalicəsini tapmağa səfərbər olduğu bir vaxtda bu kimi həssas məqam diqqətdən kənarda qalır. Görmənin itirilməsi, azalması və zəif görən insanların artmasının səbəbləri isə olduqca dərindir.

# Türkiyəli aktyorların pullarını alıb qaçdı



**Aralarında türkiyəli aktyorlar Haldun Dormen, İlber Ortaylı, Bennu Gerede, Zafer Algöz və prodüser Adil Şentekin də olduğu bir qrup şəxs yaşadıqları mənzilin işçisi tərəfindən aldadılıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, borcu olduğunu iddia edən mənzil işçisi bina sakinlərindən pul yığıb. Daha sonra həmin şəxs barəsində hər hansı məlumat almaq mümkün olmayıb. "Hürriyet"də çıxan xəbərə görə, Nişantaşında Hüsrev Gerede küçəsində yerləşən tarixi mənzildə işləyən şəxs bina sakinlərinin bəzilərindən 5 min lirə alıb. O, yığdığı pulları götürüb, həyat yoldaşı və uşaqlarını tərk edərək qaçıb.

Bir həftədir itkin düşən şəxsin əmək müqaviləsi ləğv edilib. Barəsində rəsmi qurumlara şikayət ediləcək.

# Yarım milyard pul istəyir

## Arvadı keçmiş futbolçunu məhkəməyə verib



**Rusiyalı futbolçu Pavel Mamayevin keçmiş arvadı Alana onu məhkəməyə verib.**

Lent.az xəbər verir ki, Alana öz ərindən yarım milyard rubl (66 min dollardan çox) pul təzminatı istəyir.

Onun dediyinə görə, birgə yaşayış vaxtı Pavel ondan 478 milyon rubl (təxminən 11 milyon manat) gizlədib. Həmin pula o, bir neçə mənzil və "Lexus LX 570" markalı avtomobil alıb.

*Qeyd edək ki, onların bu evlilikdən 3 övladı var.*

# Məhşur rejissor ikinci dəfə ata olacaq



**Dünyaca məşhur rejissor Kventin Tarantino ikinci dəfə ata olacaq.**

Axşam.az xəbər verir ki, "The Jerusalem Post"un məlumatına görə, rejissorun həyat yoldaşı, aktrisa Daniela Pik hamilədir. Pikinin hamiləliyin erkən dövründə olduğu və əlavə təfərrüatlar hələ məlum olmadığı bildirilib.

*Qeyd edək ki, cütlüyün bundan başqa Leo adlı 2 yaşlı oğlu var.*

# Fenomenlər təyyarə qəzasında öldü



**İslandiyada qəzaya uğrayan təyyarədə həyatını itirən 4 nəfər arasında amerikalı 22 yaşlı yutuber Coş Neuman və 32 yaşlı belçikalı fenomen Nikola Bellavianın olduğu açıqlanıb.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, cəsədlər uzun sürən axtarışlar nəticəsində Thinqvallavatn gölündə 157 metr dərinlikdə aşkarlanıb.

İlkin məlumata görə, Coş "Cessna 172" təyyarəsi ilə Belçikanın "Suspicious Antwerp" moda brendinə kommersiya məzmunu yaratmaq üçün uçurmuş. Onunla birlikdə hava nəqliyyat vasitəsində şirkətin sponsorluq meneceri Tim Alinqs və Nikola olub.